

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET № 48 (7303) / Çərşənbə, 13 mart 2019-cu il


## Azərbaycan-ABŞ ikitərəfli münasibətləri daha da genişlənəcək



⇨ Bax: səh. 2

## Prezident İlham Əliyev Roma Papası Fransiski təbrik edib



⇨ Bax: səh. 2

## Azərbaycan erməni yalanlarının ifşası istiqamətində sistemli iş aparır

⇨ Bax: səh. 6



## "Müasir çağırışlar: dini durum və vəzifələr"

⇨ Bax: səh. 7



Elçin Əhmədov:

## Böyük dövlətlər Ermənistana təzyiqləri artırmalı, təcavüzkarı beynəlxalq birliyin iradəsinə tabe etdirməlidirlər

⇨ Bax: səh. 11





## Azərbaycan-Fransa iqtisadi əməkdaşlığı daha da inkişaf etdirilməlidir



⇨ Bax: səh. 3

## BSU-da "İlaxır çərşənbə səfirlərlə"



⇨ Bax: səh. 9


13 Bakının ilk neft jurnalı

14 "Reket jurnalistika" - Azərbaycan mediasının qara ləkəsi - RƏYLƏR

16 Qlakom nədir?

## Naxçıvan MR-də lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsinə maliyyə vəsaiti ayrılıb



Prezident İlham Əliyev çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə Azərbaycan Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.67-ci bəndində göstərilmiş məbləğin 449 min manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək, Maliyyə Nazirliyinə bu Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

## Naxçıvan MR-də çoxmənzilli binaların dam örtüklərinin təmirinə 2,2 milyon manat ayrılıb

Prezident İlham Əliyev çoxmənzilli binaların dam örtüklərinin təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, çoxmənzilli binaların dam örtüklərinin təmiri məqsədilə Azərbaycan Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.67-ci bəndində göstərilmiş məbləğin 2 206 000 manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

Maliyyə Nazirliyinə Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılır.

## Bəxtiyar Qaraca və Telli Pənahqızı MTRŞ-nin üzvləri təyin ediliblər

Prezident İlham Əliyev Milli Televiziya və Radio Şurası üzvlərinin təyin edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, Balakişiyev Bəxtiyar Qaraca oğlu, Əliyeva Telli Pənah qızı 6 il müddətinə Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurasının üzvləri təyin ediliblər.

## Prezident İlham Əliyev Roma Papası Fransiski təbrik edib

Azərbaycan Prezidenti İlham Əliyev Roma Papası Fransiskə təbrik məktubu ünvanlayıb. Təbrikdə deyilir: "Zati-müqəddəsləri, Tacqoyma Gününüzün ildönümü münasibətilə Sizə və Sizin simanızda bütün həmməzhəblərinizə öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı münasibətlər, eyni zamanda, dinlər və mədəniyyətlər arasında dialoq və tolerantlıq mühitinin təşviqi üçün bariz nümunədir. İnanıram ki, əməkdaşlıq zəminində addımlarımız bundan sonra da dünyada sülhün və əmin-amanlığın, qarşılıqlı anlaşma və həmrəyliyin bərqərar olmasına xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, ali missiyanızda uğurlar diləyirəm".

# Azərbaycan-ABŞ ikitərəfli münasibətləri daha da genişlənəcək



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Amerika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqerin etimadnaməsini qəbul edib.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Örl Litzenberqer fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi. Örl Litzenberqer Azərbaycana səfir təyin olunmasından məmnunluğunu ifadə etdi və fəaliyyəti müddətində iki ölkə arasında əlaqələrin daha da inkişafı məqsədilə səylərini əsirgəməyəcəyini vurğuladı.

Prezident İlham Əliyev Örl Litzenberqeri ölkəmizə səfir təyin olunması münasibətilə təbrik etdi və onun səfir kimi fəaliyyəti dövründə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin daha da genişlənəcəyinə və inkişaf edəcəyinə əminliyini bildirdi.

Prezident İlham Əliyev və səfir Örl Litzenberqer Azərbaycan-ABŞ əlaqələrinin yüksək səviyyədə olması və uğurlu inkişafından məmnunluq ifadə etdilər.

Səfir Azərbaycanın Əfqanıstanda həyata keçirilən sülhməramlı əməliyyata canlı qüvvə ilə töhfəsini və həmçinin bu əməliyyat əsnasında göstərdiyi logistik və nəqliyyat dəstəyinin ABŞ hökuməti tərəfindən yüksək qiymətləndirildiyini qeyd etdi.

Söhbət zamanı siyasi əlaqələr, enerji təhlükəsizliyi, ticarət, demokratik inkişaf məsələləri ətrafında fikir mübadiləsi aparıldı, humanitar sahədə, o cümlədən insanlar arasında əlaqələrin inkişafının əhəmiyyəti vurğulandı.

Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edildi, Prezident İlham Əliyev Azərbaycanın münaqişənin həllinə dair



beynəlxalq hüququn norma və prinsiplərinə və ədalətə əsaslanan mövqeyini diqqətə çatdırdı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan tərəfi ATƏT-in Minsk qrupunun həmsədrlərinin son bəyanatı, o cümlədən danışıqlar formatının dəyişdirilməməsi ilə bağlı fikirlərini müsbət qarşılayır.

Prezident İlham Əliyev və səfir Örl Litzenberqer Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin gələcək inkişafı və daha çox sahələri əhatə etməsinin önəmi barədə fikir mübadiləsi apardılar.

*Ziyafət Əsgərov:*

# Danışıqlar prosesini ləngitmək, təxribat törətmək Ermənistan rəhbərliyinin köhnə siyasətidir



**Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı aparılan danışıqlar prosesini ləngitmək, təxribat törətmək Ermənistan rəhbərliyinin köhnə siyasətidir. Bunu Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov deyib.**

Z.Əsgərov qeyd edib: "Biz Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimi tanımırıq. Sözsüz ki, Ermənistan rəhbərliyinin qeyri-səmimi davranışları sülh danışıqlarının düzgün məcrada aparılmasına mane olur. Ermənistan danışıqlardan yayınmaq, prosesi pozmaq üçün hər zaman müxtəlif bəhanələr gətirir: format dəyişdirilsin, qondarma rejim danışıqlarda iştirak etsin və s".

I Vitse-spiker bildirib ki, bu format 1992-ci ildən ATƏT-in Minsk qrupu tərəfindən təsdiq edilib və danışıqlar da bu istiqamətdə davam etdirilməlidir: "Bizim mövqeyimiz hamıya - beynəlxalq ictimaiyyətə, ATƏT-in Minsk qrupuna bəllidir. Azərbaycan formatın dəyişdirilməsinin qəti əleyhinədir. Çünki münaqişə Azərbaycan və Ermənistan arasındadır, torpaqlarımızı Ermənistan işğal edib. Amma Ermənistan hər vəchlə danışıqların bu formatda aparılmasına mane olmağa çalışır. Minsk qrupunun həmsədrləri də hesab edir ki, danışıqların formatı dəyişilməz olaraq qalmalıdır. Biz danışıqların bu istiqamətdə getməsinin tərəfdarıyıq".

O vurğulayıb ki, Azərbaycan hər zaman danışıqlar prosesinə sadiq olub: "Danışıqlar prosesini ləngitmək, qeyri-səmimilik, təxribat törətmək Ermənistan rəhbərliyinin köhnə siyasətidir. Amma bu siyasətin axırı yoxdur. Hər halda bizim səbrimiz tükənməz deyil. Danışıqlar prosesinin beynəlxalq hüququn bərqərar olunması, torpaqların işğaldan azad olunması və regionda sülhün bərpa olunması ilə nəticələnməsini istəyirik. Biz həm beynəlxalq hüquqdan, həm də beynəlxalq dəstəkdən istifadə edib, istənilən vasitə ilə torpaqlarımızı işğaldan azad etməyə hazırıq. Bütün hallarda istəyirik ki, münaqişə danışıqlar yolu ilə həllini tapsın. Əgər başqa variant olacaqsa, biz buna da hazırıq".

# Azərbaycan-Fransa iqtisadi əməkdaşlığı daha da inkişaf etdirilməlidir







### Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransa Senatının sədri Jerar Larşe ilə görüşüb

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva martın 12-də Parisdə Fransa Senatının sədri Jerar Larşe ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Fransa Senatının sədri Jerar Larşe Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı qarşıladı.

Mehriban Əliyeva Senatda Fransa-Azərbaycan dostluq qrupunun sədri və müşavirlər ilə görüşdü.

Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə Fransa Senatının sədri Jerar Larşenin görüşü oldu.

Jerar Larşe ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu bildirdi. Prezident İlham Əliyevin ötən ilin iyulunda Paris səfərini məmnunluqla xatırlayan Senatın sədri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın da Fransa-Azərbaycan əlaqələrinin inkişafına böyük töhfə verdiyini, onun mədəniyyət, elm və təhsil sahələrində böyük xidmətlərinin olduğunu vurğuladı. Azərbaycanda qadınlara səsvermə hüququnun hələ Fransadan əvvəl verildiyini diqqətə çatdırdı. Fransanın Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının inkişafında maraqlı olduğunu deyən Senatın sədri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışarkən bildirdi ki, ölkəsi ATƏT-in Minsk Qrupunun həmsədri kimi münaqişənin sülh yolu ilə həllinə tərəfdardır.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransaya səfərinin uğurlu olduğunu və səfər çərçivəsində bir sıra səmərəli görüşlərin keçirildiyini bildirdi. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyəsini qeyd edən Azərbaycanın Birinci vitse-prezidenti əməkdaşlıq baxımından böyük potensialın olduğunu dedi. Azərbaycan-Fransa iqtisadi əməkdaşlığının daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayan Birinci vitse-prezident fransız şirkətlərini ölkəmizdə daha fəal olmağa çağırdı. Mehriban Əliyeva Azərbaycanın iştirakı olmadan regionda heç bir layihənin reallaşmadığını və ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynadığını diqqətə çatdırdı. Azərbaycanın Birinci vitse-prezidenti ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinin də yüksək səviyyədə olduğunu dedi və Tərəfdaşlıq Prioritetləri sənədinin imzalanmasının əhəmiyyətini vurğuladı.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tezliklə, sülh və danışıqlar yolu ilə beynəlxalq hüququn normaları və ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini vurğulayan Mehriban Əliyeva bildirdi ki, münaqişənin mövcudluğu bütün regionun inkişafına və təhlükəsizliyinə ciddi təhdiddir.

Görüşdən sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransa Senatının xatirə kitabını imzaladı.

### Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransanın birinci xanımı Brijit Makron ilə görüşü olub

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın martın 12-də Yelisey sarayında Fransanın birinci xanımı Brijit Makron ilə görüşü olub.

Görüşdə Azərbaycan-Fransa əlaqələrinin inkişafından məmnunluq ifadə edildi. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Parisə səfərinin əlaqələrin inkişafına mühüm töhfə verəcəyi bildirildi. Söhbət zamanı ailə-qadın, gender bərabərliyi, təhsil, ətraf mühitin qorunması və digər məsələlərlə bağlı müzakirələr aparıldı, Bakıda Fransız Liseyinin fəaliyyətinin məmnunluq doğurduğu qeyd olundu, Şərqdə hüquq elminin ilk dəfə Azərbaycanda tədris edildiyi bildirildi. Mehriban Əliyevanın rəhbərliyi ilə müxtəlif dövrlərdə Fransada keçirilən mədəniyyət tədbirlərinin əhəmiyyəti vurğulandı.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransanın birinci xanımı Brijit Makronu ölkəmizə səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.









⇨ Davamı 4-cü səhifədə

# Azərbaycan-Fransa iqtisadi əməkdaşlığı daha da inkişaf etdirilməlidir





⇨ Əvvəli 3-cü səhifədə

**Birinci vitse-prezident Mehriban Əliyeva Fransanın sabiq Prezidenti Nikola Sarkozi ilə görüşüb**

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva martın 12-də Parisdə Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi ilə görüşüb.

Görüşdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Parisə səfərindən məmnunluq ifadə olundu. Bu səfərin Fransa-Azərbaycan əlaqələrinin inkişafına töhfə verdiyi bildirildi.

Söhbət zamanı ölkələrimiz arasında əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransa Milli Assambleyasının sədri Rişar Ferran ilə görüşü olub**

Martın 12-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransa Respublikası Milli Assambleyasının sədri Rişar Ferran ilə görüşü olub.

Fransa Milli Assambleyasının sədri Rişar Ferran Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı qarşıladı.

Mehriban Əliyeva Milli Assambleyada Fransa-Azərbaycan dostluq qrupunun sədri və müşavirlər ilə görüşdü.

Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə Fransa Milli Assambleyasının sədri Rişar Ferranın görüşü oldu. Görüşdə Azərbaycan-Fransa əlaqələrinin inkişafından məmnunluq ifadə edildi.

Rişar Ferran ölkələrimizin parlamentləri arasında əlaqələrin inkişafında maraqlı olduqlarını bildirdi. O, zəngin tarixə və mədəniyyətə malik ölkəmizin Fransada daha yaxşı tanıdılması üçün fransız deputatların Azərbaycana səfərlərinin əhəmiyyətini vurğuladı.

Birinci vitse-prezident Mehriban Əliyeva ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin önəmindən danışdı, qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. Mehriban Əliyeva bu cür səfərlərin ölkəmizi daha yaxından tanımaq və Azərbaycan həqiqətlərini fransız ictimaiyyətinə çatdırmaq üçün yaxşı fürsət yaratdığını bildirdi. Mehriban Əliyeva milli dəyərlərə sadiq olan ölkəmizdə tarixlə müasirliyin gözəl sintezinin yaradıldığını diqqətə çatdırdı.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransa Milli Assambleyasının sədri Rişar Ferranı Bakıya səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransanın mədəniyyət naziri Frank Riyester ilə Orsey muzeyini ziyarət edib**

Martın 12-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransanın mədəniyyət naziri Frank Riyesterin müşayiəti ilə Parisin Orsey muzeyini ziyarət edib.

Fransanın mədəniyyət naziri Frank Riyester Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı qarşıladı.

Parisin Orsey muzeyi ilə tanışlıq zamanı Azərbaycanın Birinci vitse-prezidentinə məlumat verildi ki, Fransa paytaxtının ən yaraşıqlı binalarından olan və əvvəllər Paris-Orlean marşrutu üzrə işləyən qatarların stansiyası kimi fəaliyyət göstərən bu bina artıq Orsey muzeyi adlanır. Bu gün Parisin, həmçinin Avropanın ən çox ziyarət edilən mədəniyyət ocaqları sırasında olan Orsey muzeyi Sena çayının sahilindədir və 1898-1900-cü illərdə inşa edilib. Paris arxitekturasının ən gözəl nümunələrindən olan Orsey muzeyi 1978-ci ildən tarixmemarlıq abidəsi kimi qorunur. Ümumiyyətlə, bu muzey şöhrətinə görə Parisdə ilk üçlükdə, dünya üzrə isə 10-luqda qərarlaşıb. Əsasən impressionist və postimpressionist kolleksiyalardan tərtib olunan muzeydə il ərzində müxtəlif tədbirlər - konsertlər, tamaşalar, dəyirmi masalar təşkil olunur.







⇨ Davamı 5-ci səhifədə

# Azərbaycan-Fransa iqtisadi əməkdaşlığı daha da inkişaf etdirilməlidir

⇨ Əvvəli 4-cü səhifədə

Muzeyi il ərzində 4 milyona yaxın insan ziyarət edir. Əsasən fransız və Avropa sənətkarlığına dair nadir incəsənət nümunələrinin toplandığı muzey 1848-1915-ci illərdə ərsəyə gələn heykəltəraşlıq, rəsm, mebel və fotolardan ibarət məşhur kolleksiyalara sahibdir. 1986-cı ildə açılışı olan Orsey muzeyində dünya şöhrətli rəssamlardan Monenin, Deqanın, Renuarın əsərlərinin kolleksiyası daha çox ziyarətçilərin diqqətini çəkir. Onların əsərlərində XIX əsr Avropa həyatının müxtəlif çalarları əks olunub. Bu əsərləri maraqlı edən ən mühüm məqam da elə budur. Avropa cəmiyyətlərinin inikası olan bu sənət nümunələrində o dövr üçün nadir sayılacaq rəssamlıq texnikalarına da rast gəlinir.







Qeyd edək ki, Azərbaycan ilə Fransa arasında mədəniyyət sahəsində əlaqələrin inkişafı daim diqqət mərkəzindədir və bu sahədə əməkdaşlıq ikitərəfli münasibətlərdə mühüm istiqamət təşkil edib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkələrimiz arasında mədəni əməkdaşlığın inkişafında hər zaman müstəsna rol oynayıb. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun bu istiqamətdə həyata keçirdiyi çoxşaxəli fəaliyyət proqramı nəticəsində dünya mədəni irsinin Fransadakı ən gözəl nümunələri bərpa olunub. Buna misal olaraq Parisdə Versal sarayının parkındakı ümumbəşəri abidələrin, Strasburqda XV əsrə aid katedralın beş vitrininin bərpasını, Luvr muzeyində İslam İncəsənəti Departamentinin yaradılmasını göstərmək olar. Bununla da bu abidələr məhz Azərbaycanın səyləri nəticəsində yenidən dünya mədəni xəzinəsinə daxil olub. Ona görə də ölkəmizin, xüsusilə də Heydər Əliyev Fondunun fəaliyyəti xaricdə, həmçinin Fransada hər zaman rəğbətlə qarşılanıb.

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lömer ilə görüşüb

Martın 12-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lömer ilə görüşü olub.



Nazir Brüno Lömer Birinci vitse-prezident Mehriban Əliyevanın Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində mühüm rolu olduğunu bildirdi. Birlikdə işləməyə hazır olduqlarını qeyd edən nazir Brüno Lömer dedi ki, Fransa yeni texnologiyalar sahəsində ölkəmizə töhfələr verə bilər. "Total"ın Azərbaycanda fəal rol oynadığını bildirən fransalı nazir nəqliyyat, kənd təsərrüfatı sahələrində də təcrübələrini bölüşə biləcəklərini qeyd etdi. O, iki ölkə arasında əməkdaşlığı möhkəmləndirməyi təklif etdi.



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığa böyük önəm verildiyini bildirdi və bunun üçün yaxşı zəmin olduğunu vurğuladı. Mehriban Əliyeva ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu, ancaq mövcud iqtisadi əməkdaşlığın real potensiala cavab vermədiyini vurğuladı. Bildirdi ki, tezliklə konkret layihələrin həyata keçirilməsinə başlanılmalıdır.

Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan-Fransa Hökumətlərarası İqtisadi Komissiyasının rolunun əhəmiyyətinə toxunaraq, cari ildə bu komissiyanın növbəti iclasının keçirilməsinin vacibliyini qeyd etdi. Mehriban Əliyeva Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lömerin ölkəmizə səfərinin ikitərəfli əməkdaşlığa böyük töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Fransalı nazir Hökumətlərarası İqtisadi Komissiyanın cari ildə iclasının keçirilməsi təklifini yüksək qiymətləndirərək, may ayında Avropada seçkilərdən sonra ölkəmizə səfərə gəlməyə imkanı olacağını dedi. Bildirdi ki, Fransa ilə əlaqələr həm də ölkəmizin Avropa İttifaqı ilə yaxınlaşmasına böyük töhfə verə və Azərbaycanın Avropa İttifaqına inteqrasiyası üçün pəncərə rolunu oynaya bilər.

# Azərbaycan erməni yalanlarının ifşası istiqamətində sistemli iş aparır

## YAP İCRA KATİBİNİN MÜAVİNİ, MİLLİ MƏCLİSİN İCTİMAİ BİRLİKLƏR VƏ DİNİ QURUMLAR KOMİTƏSİNİN SƏDRİ SİYAVUŞ NOVRUZOVUN WWW.YAP.ORG.AZ SAYTINA MÜSAHİBƏSİ



***-Siyavuş müəllim, bir müddət öncə Azərbaycan Xocalı soyqırımının ildönümünü ölkə daxilində və dünyada geniş şəkildə qeyd etdi. Sizcə, 31 Mart soyqırımının da bu miqyasda beynəlxalq aləmdə qeyd edilməsi erməni vəhşiliyinin ifşa edilməsi baxımından faydalı olardımı?***

-Təbii ki, 31 Mart soyqırımının da geniş şəkildə qeyd edilməsinə ehtiyac var. Azərbaycan tarixinə nəzər salsaq görərik ki, demək olar ki, hər ay ermənilər tərəfindən xalqımıza qarşı bu cür qətliamlar, qırğınlar törədilib. Yanvar ayında 20 Yanvar olaylarının ildönümünü qeyd edirik. Fevralda Xocalı soyqırımı, martda isə Mart soyqırımının ildönümü yad edilir. Mart soyqırımı zamanı on minlərlə insan qətlə yetirildi. Onların içərisində azərbaycanlılarla yanaşı, digər millətlərin, eləcə də yəhudilərin də nümayəndəsi var idi.

Mart soyqırımının izlərinə respublikamızın demək olar ki, hər bir guşəsində rast gəlmək mümkündür. Mart soyqırımı zamanı Bakıda, Qubada, Şamaxıda, Naxçıvanda, Lənkəranda insanların kütləvi şəkildə məhvi həyata keçirilib. Qarabağda, dədə-baba torpaqlarımız olan Qərbi Azərbaycanda yaşayan insanlarımıza qarşı da böyük vəhşiliklər törədiblər.

Mart soyqırımı Xocalı soyqırımına bərabər olan, bəlkə ondan da dəhşətli bir soyqırım olub. Mart soyqırımına nəzər salsaq görərik ki, bu soyqırım bütün ölkəni əhatə edib. Qadınlara, uşaqlara, qocalara münasibətdə dəhşətli vəhşilik və amansızlıq törədilib, onlar müxtəlif işgəncələrlə, qəddarlıqla qətlə yetiriliblər.

Bildiyiniz kimi, ümummilli lider Heydər Əliyev həm 20 Yanvar olayları, həm Xocalı soyqırımı, həm də Mart soyqırımı ilə bağlı fərmanlar verib, onların ildönümlərinin keçirilməsi ilə bağlı qərarlar qəbul edib. Təbii ki, biz bu soyqırımlarının, erməni vəhşiliyinin ifşası ilə məşğul olmalıyıq.

Xocalı soyqırımı daha yaxın tarixdir və bununla bağlı kifayət qədər arxiv materialları var. Xocalı hadisəsinin şahidləri var. Video və audio yazılar mövcuddur. Ona görə də Xocalı ilə bağlı faktlar daha çoxdur. Lakin biz Mart soyqırımına da lazımi diqqət göstərməliyik. Mart soyqırımını dünyaya tanıtmaqla göstərməliyik ki, Xocalı soyqırımı ermənilərin Azərbaycan xalqına qarşı ilk soyqırımı deyil. Bundan öncə də xalqımıza qarşı bu cür vəhşiliklər törədilib. Biz bu cinayətlərin ifşasına nail olmalıyıq. Çalışmalıyıq ki, bir də bəşəriyyət əleyhinə, insanlıq əleyhinə bu cür cinayətlər törədilməsin.

***-Sizcə, erməni yalanlarına qarşı mübarizə çərçivəsində düşmənlə siyasi-ideoloji, eləcə də elmi müstəvidə mübarizə aparan bütün qurumların, o cümlədən də bu sahədə böyük işlər görən AMEA-nın Qafqazşünaslıq İnstitutunun Ermənişünaslıq şöbəsinin fəaliyyətinin də gücləndirilməsinə, maddi-texniki bazasının genişləndirilməsinə ehtiyac varmı?***

-Təbii ki, ehtiyac var. Bu, olduqca önəmli bir sahədir. Erməni yalanlarına qarşı mübarizə, onların cinayətlərinin ifşa edilməsi olduqca vacibdir. Hesab edirəm ki, bu qurumların həm də paralel işləməsinə ehtiyac var. Düşünürəm ki, bu qurumlar Azərbaycanın hüquq mühafizə orqanları, Respublika Prokurorluğu, DTX, DİN və s. ilə geniş əməkdaşlıq etməlidirlər.

***-Son aylar ermənilər ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində Azərbaycanda ermənilərin guya təzyiq və soyqırımına məruz qalması ilə bağlı böhtanlar səsləndirirlər. Bu böhtanların ifşası istiqamətində də Azərbaycan hansı addımlar atmaqdadır?***

-Şübhəsiz ki, bu yöndə gərəkli addımlar atılmalıdır və atılır da. Bu gün Azərbaycan erməni yalanlarının ifşası istiqamətində sistemli iş aparır. Bunun nəticəsində artıq dünya erməni yalanlarına inanmır. O vaxt Azərbaycanda bəlli miqdarda erməni ailəsi var idi. Hansı ki, onların bir qismi indi də ölkəmizdə yaşayır.

Əgər onlara qarşı burada həqiqətən də bir amansızlıq, bir təzyiq olsaydı, o zaman onlar bu günə qədər Azərbaycanda yaşamazdılar. Azərbaycanlılar ermənilərə qarşı heç vaxt şiddət və amansızlıq sərgiləməyib. Əksinə, onları qoruyub. Sumqayıt hadisələri ilə bağlı aparılan hüquqi araşdırmalar sübut etdi ki, bu şəhərdə öldürülən ermənilərin hamısı "Krunq" təşkilatına pul vermək istəməyən ermənilər olub və onların qətlini də məhz ermənilər özləri həyata keçiriblər. Bu cinayətlərin başında ermənilərin özləri dayanıblar. Onlar bu olaylardan həm Qarabağ hadisələrini başlatmaq, həm də Qərbi Azərbaycandakı soydaşlarımızı didərgin salmaq üçün istifadə etdilər. 200 mindən artıq insan Qərbi Azərbaycandan didərgin salındı.

1989-1990-cı illərdə Bakını tərk edən ermənilərin bir çoxu özlərinə Şimali Qafqaz və digər respublikalarda mənzil axtarmağa gedəndə Bakıdakı evlərinin açarlarını ermənilərə deyil, azərbaycanlılara həvalə edərək gedirdi. Sumqayıt və Bakıda yaşayan ermənilərin əksəriyyəti öz evlərini dəyişdilər. Təsəvvür edin ki, Azərbaycanı tərk edən ermənilərin heç biri Ermənistana getmədilər. Əgər onlara burada təzyiq olsaydı, onlar Ermənistana gedər, orada sığınacaq axtarardılar. Lakin onlar Şimali Qafqaza, Avropaya, Amerikaya köçdülər. Amma Ermənistana getmədilər.

***- Siyavuş müəllim, qarşıdan Aprel döyüşlərinin ildönümü gəlir. Sizcə, Aprel döyüşlərinin ölkəmiz üçün əhəmiyyəti nədən ibarət oldu?***

-Aprel döyüşləri hər şeydən öncə psixoloji baxımdan mühüm əhəmiyyət kəsb edən bir məsələdir. Aprel döyüşlərinin yeganə önəmi bu döyüşlərin nəticəsi olaraq işğaldakı ərazilərin müəyyən hissəsinin azad edilməsi ilə yekunlaşmır. Təbii ki, bunun özü də mühüm əhəmiyyətə malik bir məsələdir. Azərbaycan aprel döyüşləri nəticəsində böyük bir ərazini azad etdi, bir çox kəndin təhlükəsizliyi təmin edildi, strateji yüksəkliklər ələ keçirildi. Lakin Aprel döyüşləri həm də bir sıra psixoloji amillər baxımından önəmli oldu.

***-Bunlar hansı amillərdir?***

-Ermənilər Dağlıq Qarabağ probleminin həllini uzatmaqla düşünürdülər ki, Azərbaycanda yetişən gənc nəsil, ötən əsrin 90-cı illərində qaçqın və məcburi köçkün düşən ailələrdə yeni doğulan insanlar Qarabağ və işğal edilmiş torpaqları yaddan çıxaracaqlar. Onlarda döyüş ruhu aşağı olacaq. Onlar ümid edirdilər ki, problemi uzatmaqla məsələni de-yure həll edəcəklər. Lakin Aprel döyüşləri ermənilərin bu düşüncəsini alt-üst etdi. Aprel döyüşləri göstərdi ki, gənc nəsil əvvəlki nəsillərdən öz vətənpərvərliyinə görə heç də geri qalmır. Aprel döyüşləri zamanı müxtəlif institutlardan, məktəblərdən, müəssisələrdən minlərlə insan könüllü şəkildə bu döyüşlərdə iştirak etmək üçün əlaqədar qurumlara müraciət etdi.

Aprel döyüşləri İrəvanın ermənilər arasında apardığı təbliğatı da puça çıxardı. İrəvan bu günə qədər öz əhalisini inandırmağa çalışırdı ki, Azərbaycanda döyüş ruhu yoxdur, ordusu zəifdir, texnikası köhnədir və s. Bu məsələdə sapı özümüzdən olan müəyyən qüvvələrin də ordumuz haqqında səsləndirdiyi böhtanlar az rol oynamırdı. Əslində isə Azərbaycan ordusu Rusiya, Türkiyə, Belarus, İsrail, Ukrayna və s. ölkələrdən müasir silahlar almaq, sovet dönəminə məxsus bəzi silahları yüksək səviyyədə modernləşdirməklə böyük zərbə qüvvəsi əldə etmişdi. Hərbi təchizat baxımından Azərbaycan ordusu NATO standartlarına uyğunlaşdırılıb. Bütün bunlar Aprel döyüşlərində özünü göstərdi. Azərbaycan aprel döyüşlərində öz hərbi potensialının cüzi bir hissəsindən istifadə etməklə erməni ordusunu tamamilə darmadağın elədi.

***-Aprel döyüşlərini daha hansı baxımdan əhəmiyyətli hesab edirsiniz?***

-Aprel döyüşləri KTMT-nin münaqişəyə baxışı baxımından da önəmlidir. İrəvan həmişə öz əhalisinin başının altına yastıq qoyaraq onları inandırmağa çalışırdı ki, əgər Azərbaycanla hərbi toqquşma baş versə, o zaman KTMT mütləq bu münaqişəyə qoşulacaq və Ermənistana dəstək verəcək. İrəvan iddia edirdi ki, məhz KTMT-nin köməyi ilə onlar Azərbaycanın digər torpaqlarını da ələ keçirə bilərlər. Lakin Aprel döyüşləri bunun əksini göstərdi. KTMT-yə qoşulan dövlətlərin bir çoxu açıq şəkildə bəyanat verərək bildirdi ki, Azərbaycan öz ərazisi daxilində hərbi əməliyyat aparır və odur ki, onlar bu məsələyə hər hansı şəkildə müdaxilə edə bilməzlər. Bu hadisələr göstərdi ki, KTMT-ə daxil olan ölkələr nəinki Ermənistanı dəstəkləmədi, onlar dolayısı ilə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədilər. Cənab Prezidentin erməni analarına da müraciəti oldu. Ölkə başçısı bu müraciətdə bidirdi ki, siz öz rəhbərliyinizə sual verin ki, sizin övladlarınız Azərbaycan ərazisində nə gəzir ki, onlar da antiterror əməliyyatı zamanı həyatlarını itirsin?

***-Son vaxtlar ölkə başçısı sosial-iqtisadi sahədə ciddi yeniliklərə imza atdı. Əmək haqları və təqaüdlərin artırılması, problemli kreditlərin həlli, insanların mənzil-məişət şəraitinin yaxşılaşdırılması və s. bu qəbildən olan addımlar idi. Sizcə, bütün baş verənləri Azərbaycanın iqtisadi-sosial həyatında yeni mərhələ hesab etmək mümkündürmü?***

-Ötən il aprelin 11-də Azərbaycada prezident seçkiləri keçirildi. Seçkilər dönəmində YAP-ın namizədinin təbliğat-təşviqat qrupuna daxil olan adamlar yerlərdə çoxsaylı görüşlər keçirdilər. Elə bir rayon, elə bir kənd, elə bir böyük yaşayış massivi olmadı ki, bu cür görüşlər keçirilməsin. Bu görüşlərdə vətəndaşların təklif və arzuları, onları narahat edən məsələlərin hamısı toplanaraq proqram şəklini aldı. Bu proqram seçki plotforması kimi təqdim olundu. Sonrakı dönəmdə Azərbaycanın dövlət büdcəsi müzakirəyə çıxarılanda bu məsələlər də qaldırıldı. Qaldırılan məsələlərin hamısı nəzərə alındı. Büdcədən bu problemlərin həllinə vəsait ayrıldı. Yəni bütün bu məsələlərin həlli hələ bir il öncədən nəzərdə tutulmuşdu və gördüyünüz kimi, yüksək səviyyədə həyata keçirilməkdədir.

# Erməni KİV: ATƏT-in Minsk qrupunun sonuncu bəyanatı Paşinyanı dalana dirəyib



Azərbaycanın işğal olunmuş Xankəndi şəhərində Ermənistan Milli Təhlükəsizlik Şurasının növbədənkənar iclasının keçirilməsi dalana dirənmiş vəziyyətlə əlaqədardır. Bunu Ermənistanın "168 jam" ("168 saat") qəzeti yazır.

Ötən gün Ermənistanın baş naziri Nikol Paşinyan həmin iclasda iştirak etmək üçün Xankəndinə gedib. Toplantıya Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin "rəhbərliyi" də qatılıb.

Qəzet yazır ki, iclasın gündəliyi rəsmi açıqlanmasa da, aydın məsələdir ki, belə təcili yığıncağın keçirilməsi zərurəti ATƏT-in Minsk qrupunun həmsədrlərinin sonuncu bəyanatından sonra yaranıb.

Məqalədə deyilir ki, həmsədrlər bəyanatda N.Paşinyanın qondarma rejimin danışıqlar masasında oturması ilə bağlı fikirlərinə cavab olaraq danışıqların formatının birtərəfli qaydada dəyişdirilməsi cəhdlərinin yolverilməz olduğunu bildiriblər.

Qeyd olunur ki, bu bəyanatdan sonra Ermənistan hakimiyyəti faktiki olaraq dalana dirənib. Bir tərəfdən, N.Paşinyan qondarma rejimin danışıqlar masasına oturması ilə bağlı bəyanatını təkzib edə bilmir, digər tərəfdən isə qondarma rejimin iştirakı məsələsinin müzakirə olunmayacağı danışıqlarda iştirak edə bilmir. Məhz bu məqam N.Paşinyanı Xankəndidə Ermənistan Milli Təhlükəsizlik Şurasının təcili iclasını keçirməyə məcbur edib.

# Gənclər ədliyyə orqanlarına qulluğa qəbul olunublar

***Ədliyyə Nazirliyində qulluğa qəbulla bağlı növbəti müsabiqədə uğur qazanaraq peşə fəaliyyətinə buraxılmış əksəriyyəti gənclər olan daha 80-ə yaxın hüquqşünasla yeni təyinatla əlaqədar ədliyyə naziri Fikrət Məmmədovun görüşü keçirilib. Gənclər əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, əziz xatirəsini ehtiramla yad ediblər. Sonra Şəhidlər xiyabanında xalqımızın azadlığı və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman Vətən övladlarının əziz xatirəsi anılıb, məzarları önünə tər çiçəklər qoyulub. Onlar ulu öndər Heydər Əliyevin nazirliyin binasında büstü önünə gül dəstələri düzüblər.***



Nazirlikdə keçirilmiş tədbirdə ədliyyə naziri çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın davamlı tərəqqisini vurğulayıb, əhalinin bütün təbəqələrinin rifahının yüksəldilməsinə yönələn tədbirlərdən, dövlətimizin gənclərin hərtərəfli inkişafına qayğısından bəhs edib. Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında dövlətimizin başçısının gənc nəslin peşəkar olması, milli və vətənpərvərlik ruhunda tərbiyə alması, xalqa və dövlətə bağlılığı, müstəqilliyimizin möhkəmləndirilməsi ilə bağlı tövsiyələrini bir daha gənclərin diqqətinə çatdırıb.

Məhkəmə-hüquq islahatlarından ətraflı söhbət açan nazir ədliyyə idarəçiliyində gənclərin yaxından iştirakına hər cür şərait yaradıldığını bildirib, gənclərimizdə bu sahədə işləməyə həvəsin artması, onların məşğulluğunun təmin olunması məqsədilə könüllülük institutunun geniş təşviq olunaraq son bir ildə 1200-ə yaxın könüllünün fəaliyyətə cəlb edildiyini deyib, hazırda qulluğa qəbul edilən bir qrup gəncin də əvvəllər könüllü kimi nazirliyin müxtəlif qurumlarında fəaliyyət göstərdiklərini vurğulayıb.

Bildirilib ki, könüllülərlə işin dövlətimizin başçısının tapşırığına uyğun daha mütəşəkkil qaydada həyata keçirilməsi üçün hazırda onlara bilavasitə nazirliyə müraciət etmək imkanı yaradılıb, ədliyyə orqanları və könüllülər arasında münasibətləri tənzimləyən nümunəvi müqavilə forması hazırlanıb və son bir ayda 630-dan çox könüllü ilə müqavilə bağlanılaraq onlar ədliyyə fəaliyyətinə cəlb olunublar.

Sonda nazir dövlətimizin başçısının vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi ilə bağlı tələblərini diqqətə çatdırıb, korrupsiya hallarının yolverilməzliyini, etik davranış qaydalarına dönmədən əməl olunmasının vacibliyini vurğulayıb, dövlətçiliyə hər zaman sadiq olmaları, bilik və bacarıqlarını daim inkişaf etdirərək vəzifələrini layiqincə yerinə yetirmələri barədə tapşırıqlar verib, uğurlu fəaliyyət arzulayıb.

Görüşdə bildirilib ki, ötən ilin sonunda nazirlik tərəfindən elan olunmuş yeni müsabiqədə iştirak üçün müraciət etmiş 350-dək hüquqşünasla yaxın zamanda test imtahanı keçiriləcək.

Çıxış edən gənclər dövlətimizin başçısının ətrafında sıx birləşərək müstəqil Azərbaycanımızın hərtərəfli tərəqqisinə və qüdrətlənməsinə sədaqətlə xidmət edəcəklərini vurğulayıb, onlara göstərilən yüksək etimadı doğruldacaqlarına, vəzifələrini vicdanla yerinə yetirəcəklərinə, ədliyyə işçisi adını şərəflə daşıyacaqlarına və daim uca tutacaqlarına söz veriblər.

Sonra təyinat almış yeni əməkdaşlar Azərbaycan Respublikasının Dövlət Bayrağı önündə təntənəli qaydada and içib, onlara xidməti vəsiqələr verilib.

# "Müasir çağırışlar: dini durum və vəzifələr"




Martın 12-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Şamaxı Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda regional konfrans işə başlayıb.

Rayon icra hakimiyyətinin başçısı Tahir Məmmədov ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə dövlət quruculuğu prosesləri və dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində mühüm addımlar atıldığını bildirib. Qeyd edib ki, ölkəmizdə qədim tarixə malik dini məbədlərimizin bərpası və xalqımızın istifadəsinə verilməsi sahəsində ardıcıl operativ tədbirlərin həyata keçirilməsi dövlətimizin məqsədyönlü siyasətinin tərkib hissəsidir.

Tahir Məmmədov son bir ayda Prezident İlham Əliyevin baş verən zəlzələnin fəsadlarının aradan qaldırılması ilə əlaqədar Şamaxıya iki dəfə gələrək sakinlərlə görüşünün geniş ictimaiyyət tərəfindən minnətdarlıqla qarşılandığını vurğulayıb, rayonda dini durumun sabit olduğunu və bu istiqamətdə məqsədyönlü tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb.

Tədbirdə Azərbaycanda-kı nümunəvi dövlət-din münasibətlərindən söz açan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı qeyd edib ki, ulu öndər Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi ilk gündən insan hüquq və azadlıqlarına, xüsusilə vicdan və dini etiqad azadlığının bərqərar olmasına, milli-mənəvi dəyərlərimizin qorunmasına, cəmiyyətin, o cümlədən gənclərin milli-mənəvi dəyərlərə sadiq yetişməsinə böyük önəm verilməyə başlanıb. O, bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Vurğulanıb ki, dövlət başçısı İslam dininə, eləcə də ölkəmizdə tarixən mövcud olan bir çox dinlərə, həmin dinlərlə bağlı müqəddəs məkanlara tarixi, maddi-mədəni irsin bir hissəsi kimi yanaşır, milli-mənəvi dəyərlərin geniş təbliğinə daim dəstək verir. Son illərdə ölkədə 200-dən çox məscid inşa olunub, 80-dən artıq məsciddə əsaslı təmir və yenidənqurma işləri aparılıb. Mübariz Qurbanlı Mənəvi Dəyərlərin Təbliği Fondunun və Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını bu diqqət və qayğının növbəti parlaq nümunəsi kimi səciyyələndirib. O, Fondun xətti ilə ölkəmizdə mənəvi dəyərləri təbliğ edən şəxslər qismində Qafqaz Müsəlmanları İdarəsi tərəfindən rəsmi olaraq təyinat



alan mindən çox din xadiminə maddi dəstək göstərildiyini bildirib.

Ölkəmizdəki dövlət-din münasibətlərinin zəngin milli-tarixi ənənəyə əsaslandığını deyən Komitə sədri dövlətimizin din siyasətinin əsas məqsədinin dini etiqad azadlığının təmin edilməsi, dünyəvi dövlətçilik prinsiplərinin qorunub saxlanılması və dini təəssübkeşliyin dini təkəbbürə, sonra fanatizm və ekstremizmə çevrilməsinin qarşısının alınması olduğunu vurğulayıb. İnsanları birliyə, vəhdətə çağıran dinlərin mahiyyətindən uzaqlaşdırılaraq kimlərinsə əlində radikal, ekstremist, xurafat, antimilli formaya çevrilməsinin yolverilməz olduğunu bildirən Komitə sədri, bu kimi xoşagəlməz halların qarşısının alınması istiqamətində bütün bölgələrdə kompleks tədbirlərin həyata keçirildiyini söyləyib.

Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Mərhəmət Mustafayev regionlarda keçirilən bu cür konfransların gənc nəslin ənənəvi dini və milli dəyərlərimiz, bu dəyərlərin ümdə prinsipləri haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin olunmasında xüsusi rolunu qeyd edib.

Dövlət-din münasibətləri sahəsindəki siyasətin əsas istiqamətləri, multikultural dəyərlərin qorunması, eyni zamanda, tolerantlıq mühitinə, milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsi barədə müzakirələrlə yekunlaşan konfrans işini martın 13-də "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda panellə davam etdirəcək.

# "Elm həftəsi"nə start verilib



AMEA-nın Naxçıvan Bölməsində Elm Günü ilə əlaqədar olaraq "Elm həftəsi"nin ilk tədbiri keçirilib.

Tədbirdə Bölmənin sədri, akademik İsmayıl Hacıyev Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında "Elm Günü"nün təsis edilməsi haqqında" 9 aprel 2018-ci il tarixli Sərəncamını xatırladaraq, sənədə əsasən hər il martın 27-nin ölkəmizdə Elm Günü kimi qeyd ediləcəyini bildirib. Respublikamızda elmə göstərilən diqqət və qayğıdan danışan alim əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan bu ənənənin bu gün ölkə başçısı tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Daha sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxış edərək ümummilli lider Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Bölməsinin elmə verdiyi töhfələrdən danışıb.

Sonra Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli rəhbərlik etdiyi müəssisə haqqında hesabatla çıxış edib.

Fəxrəddin Səfərli Ali Məclis Sədrinin 6 dekabr 2005-ci ildə imzaladığı "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Sərəncamını xatırladaraq bildirib ki, institut əməkdaşları muxtar respublika ərazisindəki tarix-mədəniyyət abidələrini qeydə alıb, onları tədqiq edib, hər bir abidəyə aid qeydiyyat kartı hazırlayıblar. Qeydə alınan bütün abidələr dünya (57 ədəd), ölkə (496 ədəd) və yerli (665) əhəmiyyətli olmaqla təsnifatlandırılıb. 841 abidə ilk dəfə olaraq elmi dövriyyəyə daxil edilib. Bu abidələrin 555-i əsasında Azərbaycan və ingilis dillərində respublikamızda ilk dəfə olaraq "Naxçıvan abidələri ensiklopediyası" nəşr edilib.

Bildirilib ki, institut əməkdaşları tərəfindən 3 cildlik "Naxçıvan tarixi", "Naxçıvan tarixi Atlası" "Dədə-Qorqud yurdu Naxçıvan" tarixi-coğrafi və etnoqrafik Atlas hazırlanaraq nəşr olunub.

Daha sonra Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Arxeoloji xidmət şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Zeynəb Quliyeva Naxçıvan Bölməsinin alim qadınlarının fəaliyyətindən söz açıb.

Sonda tədbir iştirakçıları sözügedən institutun fəaliyyətini əks etdirən sərgi ilə yaxından tanış olublar.

**Esmira Verdiyeva**

## Prezidentin Fərman və sərəncamları rəğbətlə qarşılanır



Dünən Yeni Azərbaycan Partiyası (YAP) Biləsuvar rayon təşkilatında ərazi ilk partiya təşkilat sədrləri ilə iclas keçirilib.

İclasda YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Mirzəyev çıxış edərək ölkəmizdə son illər həyata keçirilən ardıcıl və düşünülmüş sosial-iqtisadi siyasətdən geniş söhbət açıb: "Prezident İlham Əliyevin həyata keçirdiyi islahatların nəticəsində ölkəmizin davamlı inkişafı təmin edilib, ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisi ciddi şəkildə artıb, iqtisadiyyatın modernləşdirilməsi nəticəsində yeni iş yerləri açılıb, əhalinin həyat səviyyəsi yüksəlib, məşğulluğu artıb, yoxsulluq isə azalıb". Bildirib ki, ölkəmizdə həyata keçirilən sosial siyasət insanların sosial xidmətlərə olan ehtiyaclarının ödənilməsinə yönəldilməklə təhsilin, elmin, səhiyyənin, mədəniyyətin və digər sosial-mədəni sahələrin inkişaf etdirilməsi, əhalinin sosail müdafiəsinin daha da gücləndirilməsi məqsədilə dövlət büdcəsindən hər il böyük məbləğdə vəsait ayrılır: "Elə 2019-cu ilin dövlət büdcəsinin layihəsində büdcənin sosial yönümlüyünün təmin edilməsi və bütün sosial proqramların icrası ilə bağlı qarşıya qoyulan vəzifələrin həllini tapması təsadüfi deyildir. Cənab Prezident İlham Əliyev ölkə əhalisinin daim sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı ciddi addımlar atır".

Sonra YAP Biləsuvar rayon təşkilatı Şurasının üzvü, rayon Ağsaqqallar Şurasının sədri Əvəz Miriyev çıxış edərək Prezident İlham Əliyevin son aylar ərzində imzaladığı sərəncam və fərmanların ölkə əhalisi, eləcə də rayon sakinləri arasında rəğbətlə qarşılandığını vurğulayıb. Həmçinin çıxış edənlərdən ərazi ilk partiya təşkilatı sədrlərindən Rafiq Cəfərov, Adil Hüseynov və başqaları Prezident İlham Əliyevin bu Fərman sərəncamların inqilab olduğunu bildiriblər.

✍ **Taleh Bağırov,**
***"İki sahil"***

## Lerikdə kütləvi tibbi müayinələr davam edir

Prezident İlham Əliyevin əhalinin kütləvi tibbi müayinədən keçirilməsi ilə əlaqədar göstərişi respublikanın hər yerində olduğu kimi, dağlar diyarı Lerik rayonunda da yüksək səviyyədə yerinə yetirilir. İnsanların sağlamlığının qorumasına, yarana biləcək hər hansı xəstəliyin erkən aşkar edilməsinə hesablanan bu aksiyanın düzgün aparılması üçün xüsusi tədbirlər planı tərtib edilib, müayinəyə gələn leriklilərin ərazilər üzrə bölgüsü aparılıb. Müayinədən ötrü xəstəxanada rahat şərait yaradılmaqla bərabər, iki ixtisaslaşmış təcrübəli həkim briqadası bu işə cəlb edilib.

Aksiya başlandığı gündən qrafik əsasında rayon sakinləri müasir tibbi avadanlıqlarla təchiz olunmuş səhiyyə ocağına gəlir, qan analizi verir, rentgen, ultrasəs və digər müayinələrdən keçirlər. Lerik Rayon Mərkəzi Xəstəxanasının baş həkimi, tibb elmləri üzrə fəlsəfə doktoru "Qabaqcıl səhiyyə işçisi" Mübariz Ağayev söhbət zamanı dedi ki, xəstəxanada dövlət başçısının humanitar tədbiri olan əhalinin kütləvi şəkildə müayinəsi üçün bütün imkanlar yaradılıb. İndiyədək 9 min nəfər vətəndaş həkim müayinəsindən keçib. Onlardan 16 nəfərin stasionar müalicəyə ehtiyaci olub. Bir xəstə isə peşəkar həkimlər tərəfindən əməliyyat edilib. Həm də xəstəxanaya gələ bilməyən imkansız adamların müayinəsindən ötrü səyyar həkim briqadası yaradılıb.

✍ **Zəfər Orucoğlu,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

## Azərbaycanın işğal olunmuş ərazilərində erməni əsgər güllələnib

Azərbaycanın işğal olunmuş ərazilərində erməni əsgər həlak olub. Dünən səhər saatlarında Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində yaradılmış hərbi hissələrdən birinin döyüş mövqeyində 2000-ci il təvəllüdlü müddətli hərbi xidmət hərbi qulluqçuçu Karen Karapetyanın meyiti tapılıb.

Onun hələ məlum olmayan şəraitdə aldığı güllə yaralarından öldüyü bildirilir. Araşdırma aparılır.

# Bakı Ali Neft Məktəbində "ASAN Kadr" Karyera Mərkəzinin 2-ci Karyera sərgisi

**Martın 12-də "ASAN Könüllülük" Məktəbinin "ASAN Kadr" Karyera Mərkəzi və Bakı Ali Neft Məktəbinin (BANM) birgə əməkdaşlığı ilə 2-ci Karyera sərgisi keçirilib.**



Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, müxtəlif yerli və xarici müəssisələrin nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov qonaqları salamlayaraq artıq ikinci ildir ki, keçirilən Karyera sərgisinin gənclərin həyatına müsbət təsirini qeyd edib. Həm potensial kadr axtarışında olan şirkətləri, həmçinin işlə təmin olunmaq arzusunda olan gəncləri bir araya gətirən bu sərginin əhəmiyyətindən danışan rektor bu kimi layihələrin gənclər üçün təşkil ediləbiləcək ən yaxşı sosial məsuliyyət layihələrindən biri olduğunu vurğulayıb.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev "ASAN Kadr" Karyera Mərkəzi vasitəsilə yüzlərlə gənc və şirkətlər arasında əlaqə yaradıldığını, onların işlə təmin olunmasına kömək göstərildiyini bildirib. Dövlət Agentliyinin sədri, həmçinin Karyera sərgisinin təşkil edilməsinə göstərilən dəstəyə görə BANM rəhbərliyinə öz təşəkkürünü bildirib.

Gənclərin məşğulluğunun artırılmasına yönəlmiş Karyera sərgisində vətəndaşlara məşğulluq, iş, təcrübə imkanları təklif edilib, habelə müxtəlif şirkətlərin insan resursları üzrə mütəxəssisləri ilə peşəkar ünsiyyət qurmağa şərait yaradılıb.

Mütəmadi olaraq təşkil olunan Karyera sərgisinin əsas məqsədi ASAN könüllüsü olmuş, o cümlədən savadlı, bacarıqlı, təcrübəli və iş potensialı ilə fərqlənən gənclərin məşğulluq imkanlarını artırmaq, vətəndaşların dövlət və özəl qurumlarda işlə təmin olunmalarına dəstək göstərmək, habelə müəssisələrin mövcud iş vakansiyaları haqqında məlumat verməkləri üçün şərait yaratmaqdır.

"Coca-Cola" şirkətinin dəstəyi ilə təşkil olunan sərgidə, ümumilikdə 80-dən çox müəssisə təmsil olunub.

"ASAN Könüllülük" Məktəbi tərəfindən ASAN könüllülərinin peşəkar kadrlar kimi formalaşması məqsədi ilə müxtəlif tədbirlər həyata keçirilir. Bu məqsədlə yaradılan "ASAN Kadr" Karyera Mərkəzi 1100-dən çox ASAN könüllüsünün işlə təmin olunmasına bilavasitə dəstək göstərib.

✍ **Zamin Məmmədov,**
***"İki sahil"***

# AMEA Naxçıvan Bölməsində kitab təqdimatı



AMEA Naxçıvan Bölməsində görkəmli alim Nemətullah Naxçıvaninin "Əl-Fəvatih-Ül-İlahiyyə-Vəl-Məfatih-Ül-Qeybiyyə" (Quranın kəlmə və hikmətlərini açıqlayan Qeybin açarı və ilahi fəthi) üççildlik əsərin birinci cildinin tədqimatı keçirilib.

Tədbirdə Bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək XV-XVI əsrdə yaşamış, türk-islam dünyasının elmi və ictimai fikrinin inkişafına böyük töhfələr verən, təsəvvüf və təfsir alimi Nemətullah Naxçıvaninin həyat və yaradıcılığı barədə məlumat verib. Bildirib ki, "Quran"ı təsəvvüf üslubunda şərh edən ilk alim kimi tarixə düşən Nemətullah Naxçıvani həyatının çox hissəsini Naxçıvanda, sonralar isə Təbrizdə və Türkiyənin Konya vilayətinin Ağşəhər qəsəbəsində yaşayıb.

Akademik Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Görkəmli alim Nemətullah Naxçıvani irsinin öyrənilməsi və tədqiqi haqqında" 29 oktyabr 2018-ci il tarixli Sərəncamını xatırladaraq həmin sənəddən irəli gələn vəzifələrdən danışıb. O, görkəmli alimin irsinin öyrənilməsi və tədqiqi ilə əlaqədar bu elmi müəssisədə görülən işlər barəsində məlumat verib. Diqqətə çatdırılıb ki, sözügedən Sərəncam ilə təsdiq olunan Tədbirlər Planına əsasən Azərbaycanın təsəvvüf alimləri arasında xüsusi yeri olan Nemətullah Naxçıvaninin heç bir ədəbiyyatdan istifadə etməyərək yazdığı "Əl-Fəvatih-Ül-İlahiyyə-Vəl-Məfatih-Ül-Qeybiyyə" (Quranın kəlmə və hikmətlərini açıqlayan Qeybin açarı və ilahi fəthi) üççildlik əsərinin birinci cildi bölmə əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Nərgiz İsmayılova tərəfindən Türkiyə türkcəsindən Azərbaycan dilinə tərcümə olunaraq çap edilib. Hazırda əsərin ikinci və üçüncü cildləri üzərində işlənildiyini bildirən müəssisə rəhbəri bölmənin "Taleyi və sənəti" layihəsi çərçivəsində hər il işıq üzü görən məqalələr toplusunun növbəti sayca 12-ci nəşrinin Nemətullah Naxçıvaniyə həsr olunduğunu qeyd edib. Məlumat verilib ki, bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Elxan Məmmədov tərəfindən Nemətullah Naxçıvaninin "Hidayətül-ixvan" (Qardaşların hidayəti) kitabı da tərcümə olunaraq çapa hazırlanıb.

İsmayıl Hacıyev görülən işlərin davamı olaraq cari ilin 5-7 iyul tarixində "Görkəmli Azərbaycan mütəfəkkiri: Nemətullah Naxçıvani" mövzusunda beynəlxalq konfransın keçiriləcəyini söyləyib.

Təqdimat mərasimində İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev "Görkəmli alimin "Əl-Fəvatih-Ül-İlahiyyə-Vəl-Məfatih-Ül-Qeybiyyə əsəri" mövzusunda məruzə ilə çıxış edib. Qeyd olunub ki, müstəqillik illərində milli mədəniyyətimiz və elmimizin inkişafına töhfə verən görkəmli şəxsiyyətlərin irsinin öyrənilməsi üçün geniş və münbit şərait yaradılıb, diqqət və qayğı artırılıb. Alim bu baxımdan Ali Məclis Sədrinin Nemətullah Naxçıvaninin irsinin toplanması və tədqiqi haqqında 29 oktyabr 2018-ci il tarixdə imzaladığı Sərəncamını milli mədəniyyətimizin tədqiqinə, öyrənilməsinə göstərilən dövlət qayğısının daha bir ifadəsi olduğunu bildirib. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclis Sədri cənab Vasif Talıbovun tapşırığı ilə tərcümə edilən "Əl-Fəvatih-Ül-İlahiyyə-Vəl-Məfatih-Ül-Qeybiyyə" (Quranın kəlmə və hikmətlərini açıqlayan Qeybin açarı və ilahi fəthi) əsərin birinci cildində 13 surənin təfsiri və şərhi yer alıb. Yeni nəşrdən bəhs edən Əbülfəz Quliyev bildirib ki, sözügedən sənəddə də vurğulandığı kimi Nemətullah Naxçıvaninin fəlsəfi irsinin geniş və hərtərəfli tədqiqinə azərbaycanşünaslıqda böyük ehtiyac var.

Tədbirdə Bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov və Ədəbiyyatşünaslıq şöbənin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Nərgiz İsmayılova çıxış edərək kitabın əhəmiyyətindən söz açıblar. Onlar kitabın nəşrinə görə elmi ictimaiyyət adından Ali Məclis Sədrinə öz minnətdarlıqlarını bildiriblər.

✍ **Esmira Verdiyeva**

# BSU-da "İlaxır çərşənbə səfirlərlə"

**Dünən Bakı Slavyan Universitetində (BSU) Yel çərşənbəsinə həsr olunmuş "İlaxır çərşənbə səfirlərlə" adlı təntənəli tədbir keçirildi. Bayram tədbirində Bolqarıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nikolay Yankov, Yunanıstanın səfiri Nikolaos Kanellos, Türkiyənin səfirinin xanımı Məltəm Özoral, Rusiya səfirinin mədəniyyət işləri üzrə məsləhətçisi İqor Yeronin, Ukraynanın Azərbaycandakı səfirinin birinci katibi Georgi Selski, Milli Məclisin vitse-spikeri Bahar Muradova, deputatlar Sahibə Qafarova, Mixail Zabelin, "Kaspi" Mətbuat və Təhsil Mərkəzinin rəhbəri Sona Vəliyeva, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, Trend İnformasiya Agentliyinin baş direktorunun korporativ inkişaf üzrə müavini Arzu Nağıyev, təhsil eksperti, professor Şahlar Əsgərov və media nümayəndələri iştirak edirdilər.**









Tədbiri giriş sözü ilə açan BSU-nun rektoru, professor Nurlana Əliyeva hər il olduğu kimi, bu il də yazın gəlişinin BSU-da xüsusi abhava ilə qarşılandığını bildirdi. Qeyd etdi ki, Novruz Azərbaycan xalqının zəngin maddi və mənəvi dəyərlərinin mühüm hissəsini özündə ehtiva edən unikal mədəniyyət hadisəsidir. Bu bayrama tarixi inkişaf yönümündən baxdığımız zaman onun qədim mədəni köklərə və mənəvi qaynaqlara bağlı olduğu aydın görünür. Keçmişdə olduğu kimi, bu gün də Azərbaycanda, Türkiyədə və Orta Asiya türk dövlətlərində Novruz mart ayında bayram kimi qeyd olunur. Novruzun bir xalq, millət və dövlət kimi milli dirçəlişimizdəki rolunu məhz etnik özünütəşkil mexanizmi kimi dəyərləndirən ulu öndər



Heydər Əliyev bu bayramı milli ideologiyamızın ana sütunu kimi əbədiləşdirmişdir. Ümummilli Lider Novruz bayramını xalqımızı tarixən bütövləşdirən, onun varlığını birlik, böyüklük və yaşam gücü ilə qidalandıran fenomen kimi qymətləndirmişdir.

Novruzun ölkəmiz və xalqımız üçün tarixi və mədəni əhəmiyyətindən söhbət açan rektor vurğuladı ki, Azərbaycan xalqı əsrlər boyu Novruz bayramını xüsusi təntənə ilə qeyd edib, milli adət-ənənələri öz qəlbində yaşadıb. Azərbaycanın multikulturalizm və tolerantlıq sahəsində bütün dünyaya nümunə olduğunu qeyd edən N.Əliyeva xalqımızın milli adətlərini, süfrə mədəniyyətini dünya xalqlarına sərgiləmək məqsədilə xarici ölkə səfirlərinin tədbirə dəvət olunduğunu diqqətə çatdırdı. Dünyada sülh və birgə yaşayışın təmin edilməsi məqsədilə hər kəsi Novruzun aşıladığı milli dəyərləri qorumağa və onları gələcək nəsillərə ötürməyə çağıran Nurlana Əliyeva bildirdi ki, uzun illər xalqımızın həyata, gələcəyə inam hissini, torpağa bağlılığını formalaşdıran Novruz bayramı ulu öndər Heydər Əliyevin milli dəyərlərimizə və adət-ənənələrimizə göstərdiyi diqqət və qayğı nəticəsində dövlət səviyyəli tədbirlər sırasına daxil edilmişdir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə respublikada gedən davamlı inkişaf həyatın bütün sahələrini əhatə edən uğurlarımızın sayının artmasına və Novruz bayramının ildən-ilə daha firavan, xoş ovqat və əmin-amanlıqla qeyd edilməsinə şərait yaratmışdır". Sonda rektor bayram münasibətilə hər kəsi təbrik edib, sağlam can, bol ruzi, firavanlıq arzuladı.

Azərbaycan Rus İcmasının sədri, Milli Məclisin deputatı Mixail Zabelin Novruz bayramı münasibətilə tədbir iştirakçılarını təbrik etdi. Bildirdi ki, Azərbaycan xalqının ruhunda multikulturalizm, tolerantlıq yaşayır. Hər bir xalq burada özünü çox gözəl hiss edir. Özlərinin milli bayramlarını azərbaycanlılarla birlikdə çox yüksək səviyyədə qeyd edirlər, eyni zamanda, Novruz bayramını da öz bayramları kimi sevə-sevə qarşılayırlar.

M.Zabelin qeyd etdi ki, ulu öndər Heydər Əliyevin böyük səyi nəticəsində Azərbaycanda Novruz bayramı uzun illərdir xüsusi təntənə ilə keçirilir: "Yaxın gələcəkdə Azərbaycan xalqının Novruz bayramını Qarabağda qeyd etməsini arzu edirəm".

Sonra BSU-nun yerli və əcnəbi tələbələri müxtəlif dünya dillərində bayram təbriki səsləndirdilər.

Tədbir çərçivəsində rektor, professor Nurlana Əliyeva tərəfindən Çelyabinskdə keçirilən III Beynəlxalq Diplomatik Oyunlarının final mərhələsində qalib gələn BSU-nun "Kaspi" komandasının üzvlərinə və Belarusun Minsk şəhərində keçirilən "54-cü Ulduz yürüşü" adlı beynəlxalq tədbirdə iştirak edən bir qrup fəal tələbələrə diplomlar verildi.

Əməkdar artist, cazmen Cavan Zeynallı öz ifası ilə mərasimə xüsusi rəngarənglik qatdı.

Tədbir BSU-nun "Arzu" rəqs ansamblı və özfəaliyyət dərnəyinin hazırladığı rəqslər və mahnılardan ibarət konsert proqramı ilə başa çatdı.

**Şəmsiyyə Əliqızı,**
**Röya Rasimqızı,**
**Vüsal Cahanov (foto),**
***"İki sahil"***

# Faydalı əməkdaşlıq öz bəhrəsini verir

**Martın 12-də SOCAR-ın "Azərikimya" İstehsalat Birliyində (İB) Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru, texnika elmləri doktoru, professor Mustafa Babanlının başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**





"Azərikimya" İB-nin aparıcı mütəxəssislərinin də iştirak etdikləri görüşü giriş sözü ilə açan Birliyin baş direktoru İmran Arzumanzadə qonaqları səmimi salamlayaraq növbəti dəfə belə bir təşəbbüsdə olduqları üçün ADNSU-nun rəhbərliyinə minnətdarlığını bildirib. İ.Arzumanzadə qonaqlara təqdimat vasitəsilə "Azərikimya" İB-nin Etilen-polietilen zavodunda həyata keçirilən yenidənqurma və modernizasiya layihələri, perspektiv planlar haqqında məlumat verib, kadr hazırlığı məsələləri, respublikamızın aparıcı ali təhsil ocaqları ilə qurulan əlaqələr və bu qarşılıqlı faydalı əməkdaşlığın ali təhsil ocaqlarına, kimya sənayesinə, ümumilikdə isə respublikamıza verəcəyi töhfələrdən söhbət açıb.

Qeyd olunub ki, "Azərikimya" İB-nin ADNSU ilə birbaşa əməkdaşlığı 2015-ci ildə ilk dəfə universitetin 5 nəfər tələbəsinin birliyin vasitəçiliyi ilə əvvəlcə Etilen-polietilen zavodunda, sonra isə Türkiyənin "Petkim Petrokimya Holding A.Ş."də ödənişsiz yay təcrübəsində iştirakı ilə başlanıb. Bu əlaqələr sonrakı illərdə də davam etdirilib.

Ümumilikdə isə 2015-2018-ci illər ərzində "Azərikimya" İB-nin Etilen-polietilen zavodunda ADNSU-nun 19 tələbəsinin və 9 məzununun ödənişli, 200 nəfər tələbəsinin isə ödənişsiz istehsalat təcrübəsi təşkil edilib. Bu təcrübələrin və qarşılıqlı əməkdaşlığın nəticəsi olaraq "Azərikimya" İB-nin Etilen-polietilen zavodunda işlə təmin olunan və müvəffəqiyyətlə çalışan ADNSU məzunlarının sayı da kifayət qədərdir. Hazırda universitetin 119 nəfər müxtəlif ixtisaslardan olan tələbəsi Etilen-polietilen zavodunda ödənişsiz istehsalat təcrübəsi keçir.

Səmimi qəbula, tələbələrə göstərilən diqqət və qayğıya görə "Azərikimya"nın rəhbərliyinə minnətdarlığını ifadə edən Mustafa Babanlı ADNSU-da həyata keçirilən islahatlar haqqında geniş məlumat verib. Bu islahatların daha faydalı xarakter alması üçün "Azərikimya" İB-nin mütəxəssislərinin davamlı olaraq universitetin auditoriyalarında çıxışlarının, tədris proqramlarının, həmçinin müdafiə mövzularının hazırlanmasında yaxından iştirakının vacibliyini vurğulayıb.

Görüşdə qarşılıqlı faydalı əməkdaşlığın daha da genişləndirilməsi üçün hər iki tərəfdən işçi qrupun yaradılması və birgə fəaliyyət proqramının hazırlanaraq həyata keçirilməsi təşəbbüsü irəli sürülüb və bu istiqamətdə işlərə start verilməsi üçün ümumi razılığa gəlinib.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

## Səfir Hidayət Orucovdan Əbdürrəhman Vəzirova AÇIQ MƏKTUB:

# “Heç dəyişməyibsiniz...”

Mən indi Sizə nə məktub yazmaq istərdim, nə də günahlarınızla bağlı kiməsə müraciət etmək. Respublika rəhbərliyinin başında dayananda - qılıncınızın dalı da, qabağı da kəsəndə Sizlə görüşmək, adımı rəsmi və ya qeyri-rəsmi qəbullarınızın siyahısına saldırmaq, həndəvərinizdə fır-fır fırlananlarınızın yadına düşməyə cəhd eləməmişəm. Mərkəzin təyinatını alıb Bakıda fəaliyyətə başladığınız ilk günlərdəcə təşkil etdiyiniz mitinqdəki çıxışınızı dinləyəndə əlim yerdən-göydən üzüldü, inandım ki, millətin başı üstünü qara buludlar alır. Siz ilk “monoloqunuzdanca” millətin fikrini o günlərin dəhşətli ağrılarından, elan olunmamış erməni müharibəsindən, Mərkəzin daşnaksayağı himayədarlığından, Qarabağdan, sərhədlərdən, qaçqınlardan “ayırıb” keçmişin təftişinə, təzə xiyar-pomidor “problemi”nə, köhnə dostunuzun vaxtilə işdən çıxarılması məsələsinə qatmaq istəyirdiniz. Bir-birinə calanan sonrakı acı hadisələr - iyirmi aylıq taxtınızın törətdiyi faciələr təsdiq elədi ki, zənnimdə yanılmamışam. Yazılarım Sizin əliniz altındakı hərbi senzuranın qadağalarını yarıb keçəndə mətbuatda çap olunub. Hətta bir müşavirədə məclis əhlindən qəfilcə soruşubsunuz: “Mı kak mojem nemnojko rasslabit Qidayata?” Kimsə: “On v poslednee vremya molçit” - deyib. Siz yenə əsəbiləşmisiniz : “Eqo molçaniye toje opasno!”.

Qəzet redaktorları telefon söhbətində, ya görüşlərimizdə deyirdilər : “Fikirlərin ürəyimizdəndir, bircə MK-dan icazə verələr, heç olmasa, şöbə müdiri...”

Yanvar soyqırımından sonrakı yazılarımda isə dönə-dönə demişəm: Kimdir günahkar? Ə.Vəzirov “Mərkəzin” sessiyasında (SSRİ Ali Sovetinin sessiyası nəzərdə tutulur - red.) oturub nə yazıb-pozur görəsən? Bəlkə həqiqəti heç olmasa indi aça? Soruşmuşam, Sizdən də ... Ə.Daşdəmirovdan da (televiziyadakı “tarixi” bəyanatını hamı xatırlayır, özü də iki il sonrakı “redaktəsi”, “Takix namereniy o tom, çtobı vvadit komendantskiy ças v Baku u rukovodstva respubliki net” - kimi yox, sadə və konkret - “V Baku ne budet komendantskoqo çasa” kimi) soruşmuşam. Məndən başqa da bu sualı verən çox olub, iki ildən çoxdur cavabını gözləyirlər, neçə gün bundan qabaq Siz ekranda görünəndə (Daşdəmirov da axır ki, həmin verilişdə peyda oldu) fikirləşdim, heç olmasa, bu dəfə “Mərkəz hücumçusu” maskasını yırtıb, formal da olsa, səmimi danışmağa çalışacaqsınız.

* * *

Söhbətinizin əvvəlindəcə deyəndə - Şəhidlər xiyabanında, baş daşlarında bircə tanış ad, bircə tanış şəkil görməyibsiniz, - hansı simə vurdunuz, aydındır, amma deyəsən, Siz də inanıbsınız ki, tamam günahsız adamlar şəhid olublar və bu günahsızlar içində günahkarlar axtarırdınız? “Rəqib” tərəfdə, Xalq Cəbhəsində, o vaxtlar yaranmış təzə partiyalarda və qurumlarda, sözün düzünü az-çox üzünüzə deyən ziyalılar içindəmi gəzirsiniz günahkarları? O müsibətdə çoxlarının günahı var. Buna sözüm yox, bəs baş günahkar kimdir? Heç olmasa etiraf edəydiniz ki, o Xiyabanda bircə nəfər hökumət adamı, vəzifələrə təyin etdiyiniz onlarca səbatsız kəslərdən, onların oğul-uşaqlarından, doğmalarından, yaxın qohumlarından (hamısının canı sağ olsun, mən faktdan danışıram) bircəsi də yoxdur, onda “rəqib” tərəfi qınamağınıza təbii baxmaq olardı.

Yenə 1988-ci ilin ortalarında Bakıya gəlişinizi, ekoloji, iqtisadi problemləri, işsizliyi... xatırladınız, mənə elə gəldi - təxminən dörd il bundan qabaq, o vaxtlar Leninin adını daşıyan meydandakı çıxışınızın mətnini yenidən təkrar oxuyursunuz, indicə cənab “palitbüro”dan, “tovariş Qorbaçov”dan sitatlar deyəcəksiniz. Sonra yenə iqtisadi məsələlərə qayıtdınız, “demə”, 1989-cu ilin yayında SSRİ Dövlət Statistika Komitəsinin məlumatınca, Azərbaycan ölkədə meyvə və tərəvəz istehlakına görə... 14-cü yerdə imiş, Siz də hökm edib respublikadan çıxan yolları bağlayıbsınız, guya bazarlarda qiymətlər aşağı düşüb və məhsulu respublikadan çıxarmağa vərdiş etmiş kişilər bəyanat veriblər: “Mı oplatim skolko uqodno, Vezirov ne doljen ostatsya do sleduyuşeqo leta”. (Vəzirovun bəzi ifadələri çıxışının orijinalında olduğu kimi saxlanır - red.) Təəccüblü bir “qiymət” də dediniz - bu qiyməti Sizin başınıza kimin qoyduğunu sirr saxladınız, amma rəqəmi bildirdiniz: 300 milyon... Hə, Siz doğrudan da gələn yaya qala bilmədiniz, bəlkə o tacir kişilər törətdilər Yanvar müsibətini?

Siz həqiqətən bu qədər sadəlövhsünüz, yoxsa oynayırsınız? Respublika rəhbərinin, üstəgəl diplomatın belə sadəlövh olmasına kim inanar? O ki qaldı oyuna... mən nə az, nə çox, düz on altı il peşəkar teatrda rəhbərlik etmişəm, pyeslər yazmışam, Şekspiri dilimizə çevirmişəm... Sizin oyununuzu şit komediyalardakı şit personajların ifaçıları ilə müqayisə etmək olar.

Yeri oldu-olmadı “moy narod”, “moy narod” deyə-deyə Sumqayıtı, sonra (?) Əsgəranı, “zaxvat vlasti... v Lenkorane”, Cəlilabadı, Cənubla sərhəddəki “neslixannıy vandalizm...” i, “srıv zasedaniya Verxovnoqo Soveta”nı, “mitinq Soveta oboronı”, müxalifətlə gecə yarıdan xeyli keçənədək oturub söhbətləşdiyinizi dönə-dönə xatırladınız, demək istəyirdiniz ki, 20 Yanvar müsibəti “təbii” idi? Bəs kim xalqı o dəhşətli qırğından xəbərdar etməliydi? Müsibətdən neçə gün qabaq zavoddakı görüşünüzdə o nə “silahlanma” tezisiydi atmışdınız meydana?

“Сентр виноват? А сейчас?”

Çox hərləndiniz bu sözlərin ətrafında. Mərkəzə bircə kəlməlik qınaq, tənqid eşidilmədi... Bəlkə Siz də Yazovun yanvarın 18-dən 19-na keçən gecə Bakıya gəlişindən xəbərsiz idiniz? Və necə oldu ki, bütün Azərbaycan çalxalanan dənizi xatırlatsa da, Siz Qorbaçovla danışmadınız?

Siz qətiyyən sadəlövh adam deyilsiniz. Azərbaycanın düşmənlərinin əliylə yazılmış ssenarinin mahir iştirakçısısınız. Siz doğrudan da sadəlövh adam olsaydınız heç olmasa, aradan iki il keçəndən sonra müsibətin kökünü, yuxarıdan verilən konkret tapşırıqların, həndəvərinizdən gələn tələblərin ucundan-qulağından nəsə açardınız, arınmaz-arınmaz “Günahkarlar axtarmayın, hamı günahkardır” - deməzdiniz. Lap dəhşətlisi budur ki, heç olmasa, peşmanlıq da keçirmirsiniz. Yox, Siz heç nəyi aça bilməzdiniz, məsələn, deyə bilərdinizmi ki, ordu çağırılması barədə Mərkəzə şifroqramma verməyibsiniz? Deyə bilməzdiniz. Ona da “Qorbaçov” deyərlər. SSRİ xalq deputatlarının qurultayında Tbilisi faciəsinə baxılması Sizin gözləriniz qabağındaca olub, Gürcüstan KP MK-nın keçmiş birinci katibi Patiaşvili bildirəndə ki, 9 apreldə Tbilisinin küçələrində tökülən qanlardan xəbərsiz imiş, Qorbaçov onun öz imzasıyla Sov.İKP-yə göndərilmiş teleqramı (komendant saatı elan olunması xahişini) gətizdirib, xalq deputatlarına oxutdurdu və bunu televiziya vasitəsilə bütün keçmiş nəhəng imperiya gördü. Ona görə də... Girenkonun, Yazovun, Mixaylovun... heç adını da çəkmirsiniz, sözünüzün də əvvəli-axırı - “günahkarlar axtarmayın, hamı günahkardır”.

Doğrudanmı yanvarın 16-dan 18-dək rəhbərlik etdiyiniz büro bu məsələylə bağlı yığışmayıb, vəziyyəti müzakirə etməyib, tədbirlər planı hazırlamayıb və bu barədə Moskvaya müvafiq məlumat verməyib, müvafiq xahiş eləməyib, kömək istəməyib? Bəlkə bu işi Ali Sovetin Rəyasət Heyəti öz üzərinə götürüb? Bəlkə hər şeyi Siz özünüz öz iradənizlə təkbaşına həll edibsiniz? Burda da sual çoxdur, amma bir şey mənə gün kimi aydındır: sizlərdən müraciət olmasaydı, Qorbaçov Azərbaycana başkəsənlər ordusu yeridə bilməzdi. Əgər Siz kömək istəməyibsinizsə və ya fövqəladə vəziyyətin əleyhinə olmusunuzsa niyə respublikanın müxtəlif təşkilatları adından müraciətləri yığırdınız? Deyəcəksiniz ki, o vaxtlar Bakıda hər hansı bir iri müəssisənin rəhbərliyi, ictimai təşkilatları MK-nın və ya raykomun tapşırığı olmadan yuxarılara müraciət edə bilərdi ki, şəhərdə hərbi vəziyyət elan edin? Buna inanan tapılarmı?

Siz qaçqınları da xatırladınız, guya müxalifəti o zavallıların problemləriylə birgə məşğul olmağa çağırıbsınız. O zavallıları ki, Sizin tapşırığınızla, raykom katiblərinin hökmüylə doğma Azərbaycandaca neçə kənddən, neçə eldən qovuldular, axırda neçə milis, DTK səddini keçib Bakıya üz tutdular, oradan da qovuldular. Sonra yenə geriyə, sonra yenə, yenə...Zəngilandakı görüşünüz yadınızdadımı? Bu yaxınlaracan amansız düşmən qabağında mərdanə dayanan Nüvədi kəndinin poçt müdiri şikayətlənəndə ki, poçtumuz gəlmir, işığımızı kəsirlər, maaşımızı ala bilmirik, ərzaq...yoxdur... Nə desəniz yaxşıdır? “Sizə şad xəbər vermək istəyirəm. Bakıya beş min erməni qayıdıb...” Elə o qaytardığınız ermənilər sonralar çox faciələr törətdilər. Bakıda da, Azərbaycanın hər guşəsində də. Elə o qaytardığınız ermənilərin gücüylə Volski Qarabağ dağlarında daşnak hökumətini möhkəmlətdi, faciələr faciələrə calandı, yerdə də qan töküldü, göydə də. Azərbaycanlılar doğma Qarabağdan ölümlə qovuldular, isti ocaqlarından didərgin düşdülər, 13-15 yanvar hadisələrinin ertəsi günü isə öz əlinizlə törətdiyiniz cinayətlərə siyasi qiymət verməyə cumdunuz, büronuzun qərarını çıxarıb, bütün günahları ö zavallıların üstünə yıxdınız. Bu qərarı çıxarmaqda əsas məqsədiniz yeni cinayət törətmək idi: yerli əhali ilə qaçqınlar arasında nifaq salmaq, qardaş qırğını törətmək. Bu yolla “şanlı” ordunun şəhərə girməsinə “ciddi” bəhanə tapmaq.

Bakıdan qaçmağınız isə... gülməli yuxulu nağıllara oxşayır: yanvarın 18-dən 27-dək “heç nə yadınızda deyil, yanvarın 18-də günorta xəbər veriblər ki, “Politbüro” Sizi işdən kənarlaşdırıb, diplomatik “karyera”nızın davamı üçün XİN-ə dəvət eləyib.

Axşam saat 11-in yarısınadək MK-da olubsunuz.

Sonra... “heç nə yadınızda deyə”.

Yanvarın 27-də ayılıbsınız. Moskvada, ayrı məmləkətdə, aydın deyil, bəlkə də ayrı şəhərdə? Yoxsa ağır stress keçirdiniz, şok vəziyyətinə düşübsünüz. Vəzifədən ayrıldığınız, yoxsa əlinizlə törədilən soyqırımı üçün? O da aydın deyil.

Bəs doğmalarınız, dostlarınız da Bakıdan nə vaxt, necə aparıldığınızı Sizə söyləmədilər?

Görürsünüzmü, yuxulu nağıllar kimidir, gülməli nağılların qəmli sonluğutək.

Ən qatı cinayətkarlar da, içlərində zərrə qədər qeyrət, namus hissi varsa, xalq məhkəməsində günahlarını etiraf edirlər, törətdiklərini açıb-ağardırlar. O dəhşətli soyqırımından iki il keçəndən sonra da günahlarının yüzdə birini boynuna almayasan, milyonlarla tamaşaçılara üz tutub deyəsən: necə getdiyim yadımda deyil, yanvarın 18-də yatıb, 27-də oyanmışam.

“Moy narod” ifadəsi səmimiyyətlə deyiləndə “mənim evim”, “mənim ocağım”, “mənim oğul-uşağım” kimi səslənir və bundan uca and yeri yoxdur. Belə ağ yalanları, multiplikasiya filmləri qəhrəmanlarının gülməcələrini xatırladan “monoloqunuzu” dinləyəndə fikirləşirsən: ulu tarixi boyu heç kəsi aldatmayan, düz sözü, düz əhdi müqəddəs sanan, qılınc qabağında da xəyanət eləməyən, mərdliyi qoca Şərqi heyrətləndirən bu qeyrətli millət doğrudanmı Sizin xalqınızdır?



* * *

Qorbaçov Sizi gecəyarı Pakistandan gətirdib, Azərbaycana rəhbər təyin edəndə həqiqətən ağır vaxtlar başlamışdı. Amma məni bir məsələ çox düşündürür: iyirmi il respublikadan ayrılmış, arada gəlib bir şəhərə rəhbərlik eləyə bilməyən adam nəyə arxalanıb, hansı prinsipləri əsas götürüb elə ağır yükün altına girdi? Əsas məqsədiniz nəydi? Qarabağ uydurmasının aşkarlanmasımı? Yoxsa qaçqınlar problemi? Bəlkə iqtisadiyyat? Yox. Siz əslində nə Qarabağın qorunmasıyla məşğul oldunuz, nə qaçqınlarla, nə də iqtisadiyyatın inkişafıyla. Gündə bir tezis atıb meydana - arxasında gizləndiniz: qoz ağacı əkmək, kompyuterləşdirmək, hamam tikmək. Bəs Qarabağ? Volski hökumətini kim yaratdı Azərbaycanın bu dilbər guşəsində? Erməninin əlini sıxan bu canişini kim SSRİ-nin xalq deputatı elədi? Bu gün deyə bilərsinizmi onun seçilməsinin təşkili üçün həmin dairəyə düşən azərbaycanlılar yaşayan rayonların, kəndlərin rəhbərlərinə xüsusi tapşırıq verməyibsiniz, deyə bilərsinizmi? Bəs Balayanın? Bu seçkidə Sizin barmağınız yoxdur? Bəs seçkiqabağı bir qrup adamınızı həmin dairəyə - azərbaycanlılar yaşayan məntəqələrə niyə göndərmişdiniz?

Qarabağla, qaçqınlarla, respublikanın başqa problemləriylə ciddi “məşğul olan” rəhbər iyirmi ayda yüzlərlə nomenklatur işçisini işdən çıxarmağa necə macal tapa bildi? Axı, o qədər adamı da təyin etmək lazım idi. Siz bu adamların fəaliyyətini, şəxsiyyətini harda öyrənmişdiz? (İşdən çıxarılanların da, yeni təyin edilənlərin də.) Harada, haçan? Hindistanda, Nepalda, Pakistanda işləyəndəmi? Ümumiyyətlə, məncə, kadr “siyasətinizdə” başlıca xətt yüksək vəzifələri Sizdən əvvəlki rəhbərliklər tərəfindən işdən qovulmuş adamlara (özləri yaşamırsa, onların uşaqlarına və ya yaxın adamlarına), özü də ağına-bozuna baxmadan paylamaq, kimlərdənsə qisas almaq, köhnəli-təzəli korrupsiya yaratmaqdan başqa bir şey deyildi.

Ölkə rəhbərləri hansı halda, hansı şəraitdə Vətəndən qaçırlar görəsən? Düşmən ordusu ölkəyə girəndən neçə gün, neçə saat qabaq? Və ulu tarix boyu başqa belə bir dəhşətli fakt qeydə alınıbmı?

Müxalifətlə görüşlərindən çox dəm vurursunuz, o söhbətlərdə əsas məqsədiniz nəydi - xalq hərəkatını parçalamaqmı? 1988-ci ilin noyabr-dekabr hərəkatında biz bunun şahidi olduq, necə dəhşətli böhtanlar yayırdılar Meydana, çadırlara. Aclıq elan edən gənclərin “saatda” ayaqyoluna neçə kərə “getdiklərini” də “saymışdınız” və bunu Siz özünüz televiziya ilə aləmə car çəkirdiniz...

Və axırıncı sözüm: bu xalqın doğrudan da yer boyda ürəyi var; torpaq kimi səbri var - izin verib Siz müqəddəs Şəhidlər xiyabanına ayaq basıbsınız. Görəsən, heç olmasa orada, əbədiyyətin zülmü ayaqladığı torpaqda içinizin lap dərin guşəsində ağlasığmaz cinayətlərinizi, bağışlanmaz günahlarınızı xatırladınızmı?

**“Yeni fikir” qəzeti,**
**23 yanvar 1992-ci il.**

### P.S.: ŞƏR QAZANI

*Açıq məktubun yazıldığı, çap olunduğu zamandan 27 ildən artıq vaxt keçib. Yazılmasına səbəb 20 Yanvarın ikinci ildönümü hüznündə müsibətdən sonra ilk dəfə televiziya ekranında görünərək bu açıq ittihamda göstərildiyi kimi, absurd, ağlabatmaz, gülməli-ağlamalı fikirlər söyləməyiniz idi. Narahat ovqatla yazılmış o sətirlər o illərdə çox oxundu, sonralar kitablarıma daxil edildi. Artıq məndə təzəcə unudulmağa başlayırdı, çünki bu müsibətin mahiyyətini, Siz başda olmaqla günahkarlarının adlarını, ünvanlarını tarix özü açmışdı və açırdı. Haçansa açıq məktubu qəzetdə yenidən dərc etdirəcəyimi (özü də sözardıyla) ağlıma gəlməzdi, əgər yeni cəfəngiyat - “Paxlava Production” internet televiziyasında saat yarımlıq şərlər, yalanlar, böhtanlar, lap başlıcası, xalqımıza, yumşaq desək - hörmətsizlik deyimləri ilə doldurulmuş yeni müsahibəniz peyda olmasaydı.*

*Heç dəyişməyibsiniz, azı 27 il bundan qabaqkı ovqatınızdasınız - “Lenin komsomolunda” işləməyinizlə fəxr edirsiniz, siyasi ideologiyalı dövlətin xiffətini çəkirsiniz, eliniz Fuzulini hələ də “Karyagin” sayırsınız. Siyasi Büronun “məlum” üzvlərindən fərqli olaraq Sov.İKP üzvü biletini atmadığınızı, ömrünüz boyu saxlayacağınızı, axırda arxivə təhvil verəcəyinizi fəxrlə bəyan edirsiniz.*

*Lap təəccüblüsü budur ki, otuz ildən artıq davam edən torpaqlarımızın düşmən zəbtinin “səbəblərini” işğalçı ölkədə hakimiyyət uğrunda gedən mübarizədə görürsünüz.*

*Özünüzü quruya çıxarmaq üçün kimə desən, şər atırsınız, yalan danışırsınız, hamıya məlum olan adi faktları təhrif edirsiniz. 20 aylıq “hakimiyyətiniz” dövründə də belə çalışırdınız. Açıq məktubdan az sonra çap olunmuş “Əgər səlahiyyətin yoxsa...” adlı müsahibəmdən sətirlər düşür yadıma: “Milli dünyagörüşün, özünüdərk proseslərinin ritmini pozmaq, xüsusilə Azadlıq hərəkatını təxribatlar yolu ilə boğmaq üçün...Vəzirov... kimi rəhbər lazım idi. Moskvaya belə kadr... gərəkdi! Bu rəhbər... Moskvanın siyasətini üç istiqamətdə aparırdı... Birincisi - çalışırdı ki, nəyin bahasına olursa-olsun, Qorbaçovun və onun antiazərbaycan, daşnakpərəst siyasətinin iç üzünü bilən Heydər Əliyevin reytinqini aşağı salsın, onu böyük siyasət meydanına yaxın buraxmasınlar. Qorbaçovun Siyasi Büro yoldaşı imperiya üçün niyə belə təhlükəliydi? Ona görə ki, siyasi çevikliyi, zəngin təcrübəsi, güclü məntiqi ilə o illərin Siyasi Bürosunda fərqlənən bu dərin zəkalı adam ciddi çətinliklər şəraitində özünü yenidən göstərər, hadisələri başqa səmtə yönəldə bilərdi. Bütün hallarda Qarabağ ermənilərə verilməz, sərhədlərimiz pozulmazdı. İkincisi - Heydər Əliyev elə bir şəxsiyyətdir ki, Qorbaçovla, Yeltsinlə... üzbəüz oturub onları susdura bilər, beynəlxalq aləmdə ifşa eliyərdi. Və o da təsadüfi deyil ki, böyük siyasətdən zorla uzaqlaşdırılmış Heydər Əliyev Brejnev - Qorbaçov Siyasi Bürosunun ilk üzvüdür ki, son imperatorun iç üzünü neçə il bundan qabaq açıb. (Liqaçov və başqaları hələ indi-indi açırlar).*

*Üçüncüsü - real, böyük qüvvə olan Xalq hərəkatını nəyin bahasına olursa-olsun parçalamaq, nüfuzdan salmaq, hərəkatla Heydər Əliyev qarşıdurmasını təşkil etmək, yaxud “eyniləşdirmək” (daha çox eyniləşdirirdilər). Sov. İKP MK-da Vəzirov yayırdı ki, guya Əbülfəz Əliyev Heydər Əliyevin əmisi oğludur... Qarşıdurmada da, eyniləşdirmədə də məqsəd hər ikisini zəiflətmək, xalqın gözündən salmaq idi. Bacarmadılar. Təkrar edirəm : Xalq müdrikdir!”*

**“Aydınlıq” qəzeti,**
**10 iyul, 1992-ci il.**

⇨ Davamı 14-cü səhifədə

*Elçin Əhmədov:*

# Böyük dövlətlər Ermənistana təzyiqləri artırmalı, təcavüzkarı beynəlxalq birliyin iradəsinə tabe etdirməlidirlər

**Hazırda Azərbaycanın dünya miqyasında nüfuzunu xeyli artırmış, ölkəmizin Cənubi Qafqaz regionunda lider dövlətə çevrilməsini şərtləndirmişdir. Nəticədə, Azərbaycan yalnız regionda gedən proseslərdə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanıb. Bununla yanaşı, Azərbaycanın apardığı müstəqil xarici siyasət regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasına yönəldilib.**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru, "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədr müavini Elçin Əhmədov bildirib.

Sədr müavini deyib: "Ancaq 25 ildən artıqdır ki, Ermənistan tərəfinin sülh istəmədiyini, status-kvonu nə qədər çox mümkündürsə saxlamaq istədiyini, işğal olunmuş torpaqlardan çəkilmək istəmədiyini, təcavüzkar dövlətin yalnız vaxt uzatmaqla məşğul olduğunu və danışıqları sonsuz bir proses kimi gələcəkdə də görmək istədiyinin şahidi oluruq".

Elçin Əhmədov bildirib ki, Ermənistan tərəfinin əsas məqsədi Dağlıq Qarabağ ermənilərinin münaqişədə iştirak edən tərəf kimi tanınmasını bütün vasitələrlə Azərbaycana qəbul etdirməkdir. Ancaq bu əsassızdır və beynəlxalq hüquq prinsipləri ilə tamamilə ziddiyyət təşkil edir. Bununla yanaşı, Ermənistan beynəlxalq hüququn fundamental prinsiplərini, xüsusilə də güc tətbiq etməmək prinsipini pozaraq Azərbaycan ərazilərini işğal etmiş, 27 il əvvəl Xocalı soyqırımını törətmiş və tarixən Dağlıq Qarabağda yaşayan azərbaycanlılar öz doğma yurdlarından məcburi köçkün düşmüşdür. Məhz işğalçılıq siyasətinə görə Ermənistan Azərbaycan tərəfindən bütün regional layihələrdən təcrid edilib. Hazırda Ermənistan çox dərin sosial-iqtisadi, demoqrafik böhran içindədir və əhalinin azalması prosesi geniş vüsət alıb.

Azərbaycan Prezidenti İlham Əliyev martın 5-də ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər və Avropa naziri Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyətinin qəbulu zamanı ölkəmizin ATƏT-ə üzvlüyə böyük önəm verdiyini, Azərbaycanın həm bu təşkilat çərçivəsində, həm də təşkilata üzv olan dövlətlərlə fəal iş apardığını və səmərəli tərəfdaşlıq əlaqələri qurduğunu bildirib. Eyni zamanda, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə toxunan Prezident İlham Əliyev bu münaqişənin uzun illərdir ki, davam etdiyini və Azərbaycan ərazilərinin bütün beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozularaq Ermənistan tərəfindən işğal altında saxlanıldığını diqqətə çatdırıb. Dövlətimizin başçısı qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə, ATƏT və digər təşkilatların bu cür qərar və qətnamələrinə baxmayaraq, 25 ildən artıqdır ki, bu tələblər yerinə yetirilmir. İşğal nəticəsində bir milyona yaxın soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü, torpaqlarımızın zəbt edildiyini, işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşdırma və demoqrafik vəziyyətin dəyişdirilməsi siyasətinin həyata keçirildiyini deyən Prezident İlham Əliyev Azərbaycanın bu münaqişənin tezliklə sülh yolu ilə həllində ən maraqlı tərəf olduğunu bildirib. Ancaq Ermənistanın substantiv danışıqların aparılması üçün hər hansı ciddi niyyətin olmadığını, danışıqlar prosesini pozmağa çalışdığını bildirən dövlətimizin başçısı münaqişənin həllində irəliləyişlərin əldə olunması və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasının təmin edilməsi üçün beynəlxalq birlik tərəfindən Ermənistana ciddi təzyiqlərin göstərilməsinin vacibliyini diqqətə çatdırıb.

Sədr müavini bildirib ki, bunun ardınca Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən Prezident İlham Əliyev bir daha bəyan edib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri əsasında, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və danışıqların formatı dəyişdirilə bilməz. Bununla yanaşı, Prezident İlham Əliyev işğal olunmuş ərazilərin azad edilməsinin danışıqlar prosesinin həmişə vacib komponenti olduğunu vurğulayıb. Dövlətimizin başçısı Ermənistan tərəfindən verilən ziddiyyətli rəsmi açıqlamaların qəbuledilməz olduğunu və danışıqlar prosesinə əngəl yaratdığını qeyd edərək beynəlxalq ictimaiyyətin bunu ciddi şəkildə nəzərə almasının və Ermənistana ünvanlı bəyanatların çatdırılmasının vacibliyini diqqətə çatdırıb.

Azərbaycan Prezidentinin prinsipial və qəti mövqeyinin nəticəsi olaraq Ermənistan baş nazirinin Brüsselə səfəri zamanı Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerini münaqişənin nizama salınması prosesində ərazi bütövlüyünün mühüm amil olduğunu bildirib. Avropa İttifaqı Şurasının sədri Donald Tusk isə münaqişə ilə bağlı qeyd edib ki, status-kvo uzun müddət qala bilməz və beynəlxalq hüquq prinsipləri çərçivəsində öz siyasi həllini tapmalı, danışıqların formatının dəyişdirilməsi isə mümkün deyil.

Bunun ardınca, martın 9-da ATƏT-in Minsk qrupunun həmsədrlərin verdiyi bəyanatda da qeyd edilir ki, danışıqların formatı dəyişdirilə bilməz. Bu, Ermənistanın populist siyasətinin uğursuzluğunun növbəti nümunəsidir. Həmsədrlərin açıqlaması göstərir ki, danışıqların əsasını işğal olunmuş ərazilərin azad edilməsi və məcburi köçkünlərin geri qayıtması təşkil edir. Həmsədrlər danışıqların təməli kimi Helsinki Yekun Aktına istinad edirlər. Helsinki Yekun Aktına görə öz müqəddəratını təyin etmək ərazi bütövlüyünə zidd ola bilməz.

Bu səbəbdən, Ermənistan rəhbərliyi birmənalı şəkildə anlamalıdır ki, Dağlıq Qarabağ bölgəsinin erməniləri digər ölkələrdə yaşayan ermənilər kimi Azərbaycanda yaşayan milli azlıqlardan biridirlər. Beynəlxalq hüquq normalarına görə milli azlıqlar öz müqəddəratlarını təyin edə bilərlər. Lakin bu, müstəqillik formasında ola bilməz. Çünki müstəqil dövlətin ərazisində yaşayan milli azlıqların belə hüquqları yoxdur. Eyni zamanda, xalqların öz müqəddəratını təyinetmə məsələsi beynəlxalq hüququn əsas prinsiplərindən olan ərazi bütövlüyü prinsipini pozmamalı, bu prinsiplə ziddiyyət təşkil etməməlidir. Bu baxımdan, Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcək, dünya birliyi heç vaxt Dağlıq Qarabağın müstəqilliyini tanımayacaq. Dağlıq Qarabağa yalnız Azərbaycanın tərkibində hər hansı bir status verilə bilər. Lakin bu Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkündür. Ancaq Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına Azərbaycan dövləti və xalqı heç vaxt imkan verməyəcək.

O bildirib ki, münaqişənin nizama salınmasında Azərbaycanın tutduğu mövqe birmənalıdır. Bu prosesdə Azərbaycan dövləti və onun başçısı Prezident İlham Əliyev, ilk növbədə, sülh variantına üstünlük verir. Ancaq münaqişə həll olunmadan, yəni Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarından çıxmayınca bölgədə heç bir müsbət irəliləyiş mümkün olmayacaq. Azərbaycan Prezidentinin bu prinsipial mövqeyi beynəlxalq hüquq normaları və prinsipləri, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və münaqişənin nizamlanması istiqamətində qəbul edilmiş çoxsaylı beynəlxalq sənədlərə əsaslanır. Eyni zamanda, münaqişənin dinc vasitələrlə nizama salınması istiqamətində bütün beynəlxalq təşkilatların qəbul etdiyi sənədlər Azərbaycanın mövqeyinin bir daha gücləndirilməsi və məsələnin beynəlxalq hüququn prinsipləri əsasında həllinin təsdiqlənməsi deməkdir.

Bu baxımdan, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə, ATƏT, Avropa Şurası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatının qərarları da əhəmiyyətlidir və ölkəmizin ədalətli mövqeyinin beynəlxalq səviyyədə müdafiəsi üçün hüquqi əsasdır. Son zamanlar isə NATO-nun Zirvə toplantılarında qəbul olunan qərarlarda da birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyü dəstəklənir və işğala son qoyulması bildirilir. Bu baxımdan, problem yalnız Azərbaycanın ərazi bütövlüyü və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həllini tapmalıdır.

Ona görə də Cənubi Qafqazda təhlükəsizliyin təmin edilməsi və sülhün əldə edilməsi üçün böyük dövlətlər müasir beynəlxalq münasibətlər üçün təhlükəli olan Ermənistana təzyiqləri artırmalı, işğalçılıq siyasətinə son qoyulması üçün qəti praktik addımlar atmalı və təcavüzkarı beynəlxalq birliyin iradəsinə tabe etdirməlidirlər.

## Mübariz Qurbanlı Şamaxıda vətəndaşları qəbul edib



Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə müvafiq olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam etdirilir.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı martın 12-də Şamaxı, Ağsu, İsmayıllı və Qobustan rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan öncə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və rayon icra hakimiyyətinin başçısı Tahir Məmmədov ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzindəki abidəsini ziyarət edərək önünə çiçəklər qoyublar.

Heydər Əliyev Mərkəzində keçirilən qəbula gələn vətəndaşların müraciətləri əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, məscidlərin təmiri, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatla təmin edilməsi və sair məsələlərlə bağlı olub.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı vətəndaşların müraciətlərini diqqətlə dinləyərək bəzilərinin həlli, bəzilərinin isə araşdırılması üçün tapşırıqlar verib. Bir sıra müraciətlər yerindəcə həll edilib.

Vətəndaşlar qəbul üçün yaradılan şəraitdən razılıqlarını bildirib, bölgələrdə bu cür qəbulların keçirilməsinin təşəbbüsçüsü olan Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

## "Azəriqaz" 18 yaşayış məntəqəsini qazlaşdıracaq



"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası məqsədi ilə SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi tərəfindən təxirəsalınmaz işlər həyata keçirilir. Belə ki, əhali istehlakçılarının mənzillərində istismar müddəti başa çatmış məişət qaz sayğacları yenisi ilə əvəz olunur, yeni qaz kəmərləri çəkilir və istismara yararsız vəziyyətdə olan qaz avadanlıqları yeniləri ilə əvəz edilir.

İstehlakçıların qaz təchizatının yaxşılaşdırılması, şəbəkənin qaz nəqletmə imkanlarının artırılması və yaşayış məntəqələrinin qazlaşdırılması üçün Birlik tərəfindən 2019-cu ilin yanvar-fevral ayları ərzində 81,7 km yeni qaz kəməri çəkilmiş, qaz kəmərləri şəbəkəsinin təhlükəsiz və normal rejimdə istismarının təmin olunması üçün isə 53,7 km qaz kəməri əsaslı təmir olunmuşdur. Cari ildə Ağcabədi rayonu üzrə 1,Beyləqan rayonu üzrə 1, Gədəbəy rayonu üzrə 6, İsmayıllı rayonu üzrə 1, Ağsu rayonu üzrə 6 və Şamaxı rayonu üzrə isə 3 olmaqla ümumilikdə 18 yaşayış məntəqəsində qazlaşdırma işlərinə başlanılmışdır.

## Atəşkəs 29 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 29 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə və İcevan rayonunun Ayqeovit kəndində yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara və Cəfərli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Yarımca, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Şirvanlı, Yusifcanlı, Füzuli rayonunun Aşağı Veysəlli, Qorqan və Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Danışıqlar formatının dəyişdirilməməsi fonunda Ermənistanın isterik cığalbazlığı



ATƏT-in Minsk qrupu həmsədrlərinin son bəyanatı, o cümlədən danışıqlar formatının dəyişdirilməməsi ilə bağlı fikirləri Ermənistanda az qala isterika ilə qarşılanıb. İşğalçı ölkənin mətbuatında bununla bağlı dərc olunan yazılarda həmişəki kimi erməni şüvəni qaldırılıb.

Təcavüzkar dövlətin "tert", "Iragir" kimi internet portallarında ATƏT-in Minsk qrupu həmsədrlərinin son bəyanatını tənqid edən erməni siyasi şərhçilər əzəli Azərbaycan torpaqlarında yaratdıqları qondarma qurumun danışıqlar prosesində üçüncü tərəf kimi iştirakına nail olmayacağını yaxşı bildiklərindən həmişəki kimi təhdid və qarayaxma yolunu seçiblər.

İşğalçı rejimin nümayəndələri ATƏT-in Minsk qrupu həmsədrlərinin üçtərəfli danışıq formatının bərpası üçün prinsipiallıq göstərmədikləri ilə bağlı təəssüfləndiklərini açıqlayıblar.

Qərəzli açıqlamaları ilə diqqət çəkməyə çalışan erməni politoloq M.Sarkisyan növbəti sayıqlamasında ATƏT-in Minsk qrupu həmsədrlərinin son bəyanatının Azərbaycanın maraqlarına xidmət etdiyini iddia edib.

Aydın məsələdir ki, həvəsləri qursağında qalan erməniləri ATƏT-in Minsk qrupu həmsədrlərinin məlum son bəyanatı xeyli xəyal qırıqlığına uğradıb. O da məlumdur ki, Ermənistanın hazırkı baş naziri Nikol Paşinyan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində siyasi sələfləri- hərbi xunta rejiminin nümayəndələri Koçaryan və Sarkisyandan da daha aqressiv və destruktiv davranaraq üçtərəfli danışıqlar formatının tətbiqi ilə bağlı israr edir. Ancaq işğalçı dövlətin rəhbərliyi onu da yaxşı bilir ki, Azərbaycan öz torpaqlarında qurulmuş qondarma rejimin saxta hökuməti ilə qətiyyən bir masaya oturmaq niyyətində deyil. Ermənistanla danışıqların baş tutmayacağı təqdirdə də Azərbaycan hərbi yolla öz torpaqlarını erməni işğalından azad edib ərazi bütövlüyünü bərpa edəcək. Bütün bunları bilərək Nikol Paşinyanın öz mənasız israrlarına davam etməsi onun Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində maraqlı olmadığını sübut edir.

Bu yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər və Avropa naziri Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən Ermənistan tərəfindən substantiv danışıqların aparılması üçün hər hansı ciddi niyyətin olmadığını və Ermənistanın danışıqlar prosesini pozmağa çalışdığını bildirmişdi. Prezident İlham Əliyev münaqişənin həllində irəliləyişlərin əldə olunması və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasının təmin edilməsi üçün beynəlxalq birlik tərəfindən Ermənistana ciddi təzyiqlərin göstərilməsinin vacibliyini qeyd etmişdi.

Xatırladaq ki, ATƏT-in Minsk qrupu həmsədrlərinin son bəyanatı Azərbaycanın dövlət başçısı tərəfindən təqdir edilib. Belə ki, Prezident İlham Əliyev ötən gün ABŞ-ın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqerin etimadnaməsini qəbul etdiyi görüşdə Azərbaycan tərəfinin ATƏT-in Minsk qrupu həmsədrlərinin son bəyanatını, o cümlədən danışıqlar formatının dəyişdirilməməsi ilə bağlı fikirlərini müsbət qarşıladığını vurğulayıb.

Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev mətbuata açıqlamasında bildirib ki, Azərbaycan həmsədrlərin bəyanatında yer alan münaqişənin mərhələli yolla həlli konsepsiyasının tərəfdarıdır: "Həmsədrlər tərəfindən xüsusi vurğu qoyulan məqam Dağlıq Qarabağ bölgəsi ətrafında işğal edilən rayonlardan Ermənistan qoşunlarının çıxarılmasından, məcburi köçkünlərin və qaçqınların geri qayıtmasından ibarətdir. Burada münaqişənin kompleks şəkildə həll üçün məcburi köçkünlərin geriyə qayıdış hüququ təsbit olunub".

İşğalçı rejimin məlum bəyanatla bağlı isterik çığallığına gəlincə, PA rəsmisi qarşı tərəfdən səslənən fikirləri Ermənistanın özünümüdafiə cəhdi kimi qiymətləndirib.

**Sevinc Abdullayeva, "İki sahil"**

# Argentina qaz hasilatını artırmaq istəyir



Argentina təbii qaz hasilatını yüksəltmək cəhdlərini artırıb. Belə ki, ölkə hökuməti qaza olan tələb və təklifi balanslaşdırmaq üçün yeni addımlar atmağı, kəmər və daşıma layihələri həyata keçirməyi, hərrac keçirməyi nəzərdə tutur.

Hyustonda keçirilən enerji konfransında Argentinanın enerji naziri Qustavo Lopetegui ölkənin ən çox qaz hasil edilən regionu Vaka Muertadan paytaxt Buenos-Ayresə kəmər tikintisi ilə bağlı 1,8 milyard dollarlıq müqavilə imzalandığını bildirib.

Həmin kəmər vasitəsilə Vaka Muertanın cari hasilatının demək olar ki, yarısından çoxu, gündəlik təxminən 40 milyon kubmetr qaz daşınacaq.

Nazirin sözlərinə görə, gələcəkdə Vaka Muerta şist yatağına illik 5-10 milyard dollar sərmayə tələb olunacaq.

Xatırladaq ki, Argentinanın qaz hasilatının əsas hissəsi Vaka Muertaya əsaslanır. Bu yataq dünyanın ən iri şist qaz və neft yataqlarından biridir. Lakin Vaka Muertanın istismarını davam etdirmək üçün böyük həcmdə sərmayəyə ehtiyac var. Orada yeni kəmərlərin, saxlama anbarlarının, daşıma üçün dəmiryol xətlərinin tikilməsi vacibdir. Argentina bundan əlavə, Boliviyadan da təbii qaz alır.

Yerli qaz hasilatı yüksələrsə, Argentina Braziliya və Çiliyə də qaz ixrac etməyi planlaşdırır.

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Azneft" İstehsalat Birliyi

**müxtəlif klapanlara olan tələbatı təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11036AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 09.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son günündək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 16.04.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.

* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.

* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər 256 AZN (ƏDV daxil və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafada göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

* Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, Lot nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin təchizat 90 gün ərzində icra olunması tələb olunur

***V. Müsabiqə təklifinin təminatı:***

* İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur.

* Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.

* Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.

* Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.

* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1000, Bakı şəhəri, Səbail rayonu; Neftçilər prospekti 73; SOCAR, "Azneft" İB

**Əlaqələndirici şəxs:**

Musayeva Yeganə
Satınalmalar və Təchizat şöbəsi, böyük mühəndis
korporativ telefon nömrəsi: +99412 521 00 00 - 11 384 (daxili)
korporativ mobil nömrəsi: +99450 841 13 84
korporativ elektron ünvanı: Yegane.Musayeva@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 16.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə bilər:

http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**

# Bakının ilk neft jurnalı




**1898-ci ildə Bakı Neft Sənayeçiləri Qurultayları Şurası ilk nəşrini - "Neftyanoe Delo" ("Neft işi") qəzet-jurnalını təsis etdi. Mətbu orqanın ilk sayı rus dilində 1899-cu il yanvarın 10-da işıq üzü gördü.**

Beləliklə, bu jurnal nəinki Bakıda, bütövlükdə dünyada neft sənayesinin nailiyyətləri və problemlərini işıqlandıran ilk sahə mətbu orqan oldu.

Azərbaycanda sovet hakimiyyəti qurulanadək jurnal ayda iki dəfə nəşr edilirdi. "Neft işi" (Nİ) jurnalının ilk sayında dərc olunan "Redaksiyadan" adlı müraciətdə qeyd olunurdu ki, bu nəşr bütövlükdə neft sənayesinin problemlərini və ehtiyaclarını, habelə bu və ya digər şəkildə onunla bağlı olan məsələləri əks etdirəcək, neft hasilatı, neft və neft məhsullarının sərf olunması və paylanması, həmçinin neftayırma zavodlarının işi barədə məlumatları dərc edəcək. Habelə neft hasilatının və emalının texniki və iqtisadi tərəflərinə, onun nəqlinə, saxlanmasına və satışına, neft sənayesinin buxar gəmiçiliyi ilə əlaqələrinə, Rusiya (Bakı) və xarici neft bazalarının vəziyyətinin təhlilinə xüsusi diqqət yetirilirdi.

Nİ Rusiya imperiyasının aparıcı mütəxəssislərinin və mədən mühəndislərinin elmi məqalələr toplusuna, bir növ neft sorğu kitabçasına çevrilmişdir.

Maraqlıdır ki, qəzet-jurnalın ilk saylarından birində Rusiya neft sənayesinə xarici sərmayə qoyuluşu barədə əhatəli analitik məqalə dərc olunmuşdur.

Qeyd etmək lazımdır ki, qəzet-jurnalın səhifələrində sırf neft-qaz sahəsindəki elmi və iqtisadi problemlərlə yanaşı, Rusiyada (o cümlədən Azərbaycanda) və xaricdə neft-mədən geologiyası məsələlərinə, Qafqazda və Abşeronda neft ehtiyatlarının vəziyyətinə, habelə Volqaboyu, Sibir və Uzaq Şərqdə yeni neft rayonlarının mənimsənilməsinin perspektivlərinə xüsusi diqqət yetirilirdi.

Burada müntəzəm olaraq Bakı Neft Sənayeçiləri Qurultaylarının stenoqrafik hesabatları, habelə ildə bir dəfə Rusiya imperiyasının neft sənayesinin əsas aparıcı gücü kimi "Bakı neft sənayesinin xülasələri" dərc olunurdu. Dünyada neft işinin tarixini öyrənən xarici mütəxəssislərin əksəriyyətinin etiraf etdiyinə görə, məhz Neft Sənayeçiləri Qurultaylarının Bakı nəşrinin ("Neft işi" və "Bakı neft sənayesinin xülasələri") nümunəsi əsas götürülərək gələcəkdə dünyanın bir çox ölkələrində neft statistikasının hazırlanması və işlənməsi prinsipləri müəyyənləşdirilmişdir.

Qafqazdakı neft nəşrinin özünəməxsusluğu, elm aləmində populyarlığının durmadan artması onun Xəzər regionunun sərhədlərindən kənarda yayılmasına imkan verdi. 1900-cü ildə bu mətbu nəşrin artıq Londonda müxbir bürosu vardı. 1910-cu ildə Rusiyanın bütün iri şəhərlərində abunə məntəqələri fəaliyyət göstərirdi, bir çox yerli və xarici dövri neft nəşrlərilə jurnal mübadiləsi həyata keçirilirdi.

"Neft işi" jurnalında neft sənayesinin əsasını qoyan nəhəng mütəxəssislərin məqalələri çap olunurdu.

Məhz bu jurnalda Peterburqda (1898-ci il) və Bakıda (1904-cü il) təsis olunan və bugünkü ictimaiyyətə az məlum olan Rusiya Nobel mükafatları haqqında tam və dolğun informasiya dərc edilmişdir. Xatırlatmaq yerinə düşərdi ki, Peterburqda təsis edilən, metallurgiya və neft sənayesi sahəsində ən yaxşı tədqiqatlara görə verilən Lüdviq Nobel adına mükafat üç dəfə - 1896, 1898 və 1905-ci illərdə təqdim edilmişdir. Amma Bakıda təsis edilən və neft işi sahəsində ən yaxşı əsərlərə və ixtiralara görə verilən Emanuil Nobel adına mükafat isə dörd dəfə - 1909, 1910, 1911 və 1914-cü illərdə təqdim edilmişdir. Qeyd etmək lazımdır ki, Bakıda verilən mükafat beynəlxalq mükafat hesab olunurdu. Belə ki, mükafatın Nizamnaməsinin 2-ci paraqrafında "həm Rusiya, həm də xarici təbəələr mükafata namizəd ola bilərlər" qeyd olunurdu.


**İbrahim Quliyev, *"Azərbaycan neft təsərrüfatı" jurnalının baş redaktoru, akademik***

1917-ci il Oktyabr inqilabından sonra "Neft işi" jurnalı Rusiya imperiyasında nəşr olunan əksər jurnallar kimi 1918-ci ilin may ayında bolşeviklərin Xalq Komissarları Bakı Sovetinin qərarına əsasən bağlandı.

Qeyd etmək lazımdır ki, I Dünya müharibəsi illərində belə jurnal müharibənin ölkə iqtisadiyyatını tamamilə iflic etdiyini vurğulayaraq, neft sənayesinin vəziyyəti haqqında məlumatları dərc etməyə davam etdi. Jurnalın 1917-ci ildə dərc olunan saylarının birində qeyd olunurdu: "Neft sənayesi 1918-ci ilin gəlişini olduqca ağır şəraitdə qarşılayır və vəziyyət son dərəcə çıxılmazdır".

Azərbaycan Demokratik Respublikası 1918-ci ilin sentyabr ayında jurnalın nəşrini bərpa etdi. 1920-ci ilin martında jurnalın əvvəlki adı ilə son nömrəsi çıxdı.

1920-ci ilin may ayında Azərbaycan SSR Xalq Komissarları Şurasının sərəncamı ilə "Neft işi" jurnalının adı dəyişdirilərək "Azərbaycan neft təsərrüfatı" (ANT) adı altında işıq üzü görmüşdür.

Bu gün jurnalda üç dildə - Azərbaycan, rus və ingiliscə materiallar dərc olunur.

Sahə üzrə ən qocaman mətbu orqan olan bu jurnal böyük nüfuz qazanaraq, nəinki respublikamızda, eləcə də onun hüdudlarından kənarda da, yüksək peşəkarlıqlı elmi-texniki və istehsalat informasiya mənbəyi kimi tanınmışdır. Fəaliyyətinin bütün dövrü ərzində jurnal öz səhifələrində olduqca sanballı materiallar toplamış, özünəməxsus kiçik bir ensiklopediya rolunu oynamışdır.

Neft sənayesi sahəsində texniki tərəqqinin çoxsaylı başlıca prioritetlərini əks etdirən materialların dərc olunması məhz ANT jurnalına məxsusdur.

Jurnalın müəllif kollektivini neft sənayesi və ona yaxın sahələrdə öz intellektual potensialını sərf edən milli və xarici mütəxəssislər, mühəndis və alimlər təşkil edir.

Jurnal neft sahəsi üçün çoxsaylı, tanınmış, yüksəkixtisaslı kadrlar nəslinin yetişdirilməsində böyük rol oynayır.

Jurnalın fəaliyyəti dövründə onun səhifələrində çox tanınmış alimlər, mütəxəssislər və istehsalat rəhbərlərinin elmi-texniki məqalələri dərc olunmuş və bu gün də olunmaqdadır.

Bütün dövr ərzində jurnala milli neft sənayesinin fəxri sayılan baş redaktorların böyük bir pleyadası rəhbərlik etmişdir. Bunlardan İ.M.Əsədovu, Ə.C.Əmirovu, M.K.Seyid-Rzanı, A.X.Mirzəcanzadəni və başqalarını göstərmək lazımdır. Müxtəlif vaxtlarda akademiklərdən İ.M.Qubkin, Y.H.Məmmədəliyev redaksiya heyətinin üzvləri olmuşlar.

Bu gün jurnal fəaliyyətini davam etdirməklə nəinki oxucuların sayının artırılmasına, habelə səhifələrində öz yaradıcı əməyi və elmi axtarışları ilə neft sənayesinin aktual məsələlərinin həllinə köməklik göstərən, yeni-yeni milli və xarici müəlliflərin çıxış etməsinə ümid bəsləyir. Redaksiyanın kollektivi, neft sənayesinin aparıcı alim və mütəxəssislərindən ibarət redaksiya heyəti ilə birlikdə jurnalın elmi-texniki səviyyəsini, istiqamətini bundan sonra da qoruyub saxlamaq və daha da inkişaf etdirmək üçün müəllif aktivi ilə böyük və səmərəli iş aparır.

Elmi-praktiki maraq kəsb edən və jurnalın fəaliyyət sahəsinə uyğun gələn məqalələri dərc etmək üçün biz həmişə hazırıq. Jurnal Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin bütün müəssisə və təşkilatlarına, sahə elmi-tədqiqat və layihə institutlarına, ali məktəblərə, müştərək müəssisələrə, xarici şirkət və firmalara, eləcə də xarici ölkələrə abunə yazılışı yolu ilə və İnternet vasitəsilə yayımlanır.

## PAKİSTAN YENİ QAZ YATAQLARINI HƏRRACA ÇIXARACAQ



Pakistan gələn il yanacaq çatışmazlığının qarşısını almaq məqsədilə çoxlu qaz yataqlarını hərraca çıxarmağı planlaşdırır.

Bu zəngin Cənubi Asiya ölkəsində 1950-ci illərdəki ard-arda qaz kəşflərindən sonra demək olar ki, çox hissə tədqiq edilməmiş qalıb.

Pakistanın ənənəvi qaz rezervləri 20 trilyon kubfut yaxud 560 milyard kubmetr, şist qaz rezervləri isə 100 trilyon kubfut təşkil edir. Qeyd edək ki, Pakistanın şist qaz rezervləri ümumiyyətlə istismar edilməyib.

İtaliyanın "Eni" və ABŞ-ın "ExxonMobil" enerji şirkətləri Ərəbistan dənizinin Pakistana məxsus hissəsində hazırda birgə ofşor əməliyyatlar aparırlar.

Ölkədə enerji islahatlarının aparılması ilə bağlı tapşırıq üzrə səlahiyyətli şəxs olan Nadim Babar cari ilin sonuna qədər bir neçə lisenziyalaşdırma mərhələsinin təşkil ediləcəyini və ölkədə ilk dəfə şist qaz siyasətinin həyata keçiriləcəyini açıqlayıb.

Hökumət son illər ölkədə təhlükəsizliyi inkişaf etdirir və böyük kəmər şəbəkəsinə investorlar cəlb etməyə səy göstərir.

Cari ilin sonuna qədər quruda yerləşən 30 yatağın hərraca çıxarılması nəzərdə tutulub.

Xatırladaq ki, son illər Pakistanın qaz hasilatının aşağı düşməsi 208 milyon əhalisi olan bu ölkədə ciddi problemlər yaradıb.

Ötən il Pakistanda qaza olan gündəlik tələbat 6,9 milyard kubfut təşkil edib ki, bu da gündəlik hasilatdan 3 milyard kubfut artıqdır.

Çatışmazlığın qarşısını almaq üçün ölkədə iki mayeləşdirilmiş təbii qaz idxalı terminalı tikilib. Lakin mayeləşdirilmiş təbii qaz baha olduğundan İslamabad xarici şirkətləri cəlb etməklə yerli hasilatı yüksəltməyə çalışır.

**Nubar Süleymanova,**
***"İki sahil"***

## YENİ QUYU QAZ VƏ KONDENSATLA ZƏNGİNDİR



Avstraliyanın "PTTEP Australasia" neft və qaz şirkətinin köməkçi şöbəsi olan "PTT Exploration & Production PCL" Avstraliyanın "Timor Sea" adlı ofşor hissəsindəki "AC/P54" blokunda yerləşən "Orchid-1" ilk kəşfiyyat quyusunda təbii qaz və qaz kondensatı kəşfinə imza atıb.

"İki sahil" "ogj.com" saytına istinadən xəbər verir ki, "Orchid-1" quyusu bu ilin yanvar ayında təxminən 2925 metr dərinlikdə qazılıb. Quyu qaz və kondensat ilə zəngindir. Şirkət quyudan gözləntisinin yüksək olduğunu və "Cash-Maple" yatağının istismarına başlayacağını da bildirib.

## "AKER ENERGY" YENİ BLOKDA ƏN ÇOX PAYA SAHİBDİR



Norveçin nəhəng "Aker Energy" enerji şirkəti Qananın ofşor hissəsində yerləşən "Deepwater Tano Cape Three Points" blokundakı "Pecan South-1A" quyusunda neft kəşfinə imza atılıb. Sözügedən blok "Aker Energy" şirkəti tərəfindən idarə olunur və quyu "Maersk Viking" qazma gəmisi vasitəsilə qazılıb.

"Pecan South-1A" quyusu "Pecan" yatağının cənubunda yerləşir və "Aker Energy" şirkətinin baş icraçı direktoru Jan Arve Hauqan mart ayının 30-da ərazidə işlərin yekunlaşacağını planlaşdırdığını bildirib.

"İki sahil" "ogj.com" saytına istinadən xəbər verir ki, quyuda qazma əməliyyatları bitdikdən sonra şirkət qazma gəmisini "Pecan South East" yatağının cənubunda digər qiymətləndirmə quyusunun qazılacağı əraziyə köçürəcək.

Qeyd edək ki , "Aker Energy" blokda 50% , şərikləri "Lukoil" 38%, "Ghana National Petroleum Corp." 10% və "Fueltrade" şirkəti isə qalan 2% payın sahibidir.

## EYMUR KƏNDİNDƏ GÖRÜŞ





Yeni Azərbaycan Partiyası Ağdaş rayon təşkilatının sədri, Milli Məclisin deputatı Cavid Osmanovun Ağdaş rayonunda seçicilərlə növbəti görüşü rayonun Eymur kəndində baş tutub. C.Osmanov son 15 il ərzində ölkəmizin keçdiyi uğurlu inkişaf yolundan söz açıb. Ölkə başçısı cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətdən bəhs edən Milli Məclisin deputatı bildirib ki, vətəndaşların rifahının daha da yüksəldilməsi, qayğıya ehtiyacı olan insanların sosial müdafiəsinin gücləndirilməsi daim dövlətin diqqət mərkəzindədir.

Milli Məclisin deputatı onu da bildirib ki, hazırkı mərhələdə Azərbaycan öz milli inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoyubdur. Bütün bunlar isə antiazərbaycan mərkəzləri və erməni lobbisini ciddi şəkildə narahat edir.

Görüşdə Arzu Yaqubov, Əlizadə Yusifov, Tehran Əliyev, İmran Xudaverdiyev, Qabil Yusifov, Məhəmməd Musayev, Fikrət Hacıyev və Hilal Ramazanov çıxış edərək bildiriblər ki, ölkəmiz durmadan inkişaf edir, insanların sosial rifahı ildən-ilə daha da yaxşılaşır. Sabitliyin, ictimai asayişin və əmin-amanlığın bərqərar olduğu bir ölkədə yaşamağın özünün böyük bir xoşbəxtlik olduğunu qeyd edən görüş iştirakçıları vurğulayıblar ki, bütün bunlar cənab Prezident İlham Əliyevin həyata keçirdiyi düşünülmüş uğurlu siyasətin nəticəsidir.

**Orxan Vahidoğlu, *"İki sahil"***

## Səfir Hidayət Orucovdan Əbdürrəhman Vəzirova AÇIQ MƏKTUB:

# "Heç dəyişməyibsiniz..."

**⇨ Əvvəli 10-cu səhifədə**

Yadınızdadırsa, açıq məktubu yazanda da, bu müsahibəni verəndə də mən siyasi, ya diplomatik vəzifə daşımırdım, "Gənclik" nəşriyyatının baş redaktoruydum. Vətəndaş kimi, qəlbimin harayına dözməyib açıq məktubu, o illərin ağır problemlərindən bəhs edən digər çoxsaylı məqalələri qələmə aldım, bu mövzuda müsahibələr verirdim.

Ata-baba yurdlarından didərgin düşmüş soydaşlarımıza yeni böhtanlar atırsınız. Guya onları Qarabağa aparmaq üçün ayrıldığınız avtobusa (?) bircə nəfər də qaçqın minməyib. Mən o illərdə də yazmışam, çap olunub: Qərbi Azərbaycandan olan qaçqınların məramı Yuxarı Qarabağda yerləşmək idi. Onlar birmənalı bildirirdilər: "Biz yalnız ora getməliyik! Yarımız qırılıb, Qarabağı xilas etmək istəyirik! (Bunu özümüzün şərəfimiz, vəzifəmiz sayırıq)." Siz imkan vermədiniz. Xalq hərəkatını aşağılamaq niyyətiniz yenə də özünü gizlətmir. Hələ də qəbul edə bilmirsiniz ki, 1988-1990-cı illərdə küçələrə çıxan, digər meydanlara toplaşan yüz minlərlə vətəndaşımızın məramı Azadlığa qovuşmaq, Qarabağı xilas etmək və Sizin antiazərbaycan siyasətinizə son qoymaq idi.

Deyirsiniz, "əgər mitinqçilərə gündə 25 manat ödənilməsəydi, onlar hərəkatı dəstəkləməzdilər." Mən o mitinqlərdə hər gün 3-5 saat olmuşam. Mənə də 25 manat ödənilib? Minlərlə ziyalı, tanınmış, ləyaqətli insan, qeyrətli vətəndaşlar görmüşəm orda. Onlara da ödəyiblər? Siz belə böhtanlar yağdırmaqla bütün xalqımızı təhqir edirsiniz.

Köhnə absurd "tezisləriniz" yadımızdan çıxmayıb. 1969-cu ildən başlayaraq səksəninci illərin əvvəllərinədək ölkəmizdə aparılmış nəhəng quruculuq işlərini hələ də "görə bilmirsiniz". "İstintaq" filmindən söz düşməsi də Sizi ayıltmır. "Leninin komsomolunda", diplomatiyada ən yüksək vəzifələr tutmuş yeganə azərbaycanlı olmağınızdan dəm vura-vura laqeydcəsinə bildirirsiniz ki... guya o filmə baxmayıbsınız. Elə bir kəndli, fəhlə, sadə "Lenin komsomolçusu" tapılarmı o filmə baxmamış olsun? O filmin nəhəng ölkənin ən yüksək dəyərini - SSRİ Dövlət mükafatı alması da "birinci Lenin komsomolçusunu", "birinci diplomatı" maraqlandırmayıb?! Bu, məsələnin bir tərəfi! Digər əsas tərəfi - 20 aylıq hakimiyyətində ölkənin məlum iki böyük regionundan olan kadrların yaxşısına, pisinə baxmadan hamısını (istər paytaxtda, istərsə də rayonlarda) ikinci, üçüncü, hətta dördüncü dərəcəli vəzifələrdən də son nəfərinədək azad edən, bu bölgələrdən olanların dövlət aparatında ən aşağı dərəcəli işçi götürülməsinə imkan verməyən şəxsin guya özündən əvvəl mövcud olmuş "klanlardan", "korrupsiyadan" dəm vurması çox yumşaq desək, acı gülüş doğurur.

Böyük qardaşınız M.Qorbaçov, onun həndəvərindəkilər barədə bircə kəlmə də olsun tənqidi fikir söyləməməyinizin "sirri" həm açıq məktubda, həm də sözardında var. Böyük qardaşınızın dilindən yalan söyləməyiniz də məni təəccübləndirmir: "Hələ 1985-ci ildə Qorbaçov mənə Azərbaycana rəhbərlik etməyi təklif etmişdi". Ağ yalandır! 1985-ci ildə K.Bağırov üç ildən də az idi ki, Azərbaycana başçılıq edirdi. O dövrdə respublika rəhbərlərini belə tez dəyişmirdilər. K.Bağırovu təcili əvəzləməyə ehtiyac da yox idi. O da Qorbaçovun tapşırıqlarını yerinə yetirirdi (Sizin kimi xalqını dəhşətli qırıma verib aradan çıxmasa da). 1985-ci ildə Azərbaycana rəhbər gəlmək istəyiniz öz səbatsız, dağıdıcı, məntiqsiz "islahatlarını", artıq hazırlamaqda olan Qarabağ xəyanətinin "layihəsini" həyata keçirməkdə ona ciddi mane olan dahi dövlət xadimi Heydər Əliyevi böyük siyasətdən uzaqlaşdırmaq təxribatında böyük qardaşınız Qorbaçova yardımçı olmaq məqsədi daşıyırdı! Yalnız şəxsən Sizin arzunuz olub. Ermənistanın müharibəsini, 20 Yanvar müsibətini beş il qabağa salmaq üçün?

Müsahibənin sonunda 2004-cü ildə Prezident İlham Əliyevin yanında Azərbaycan ensiklopediyasının nəşri ilə bağlı keçirilmiş müşavirədən Sizə aid epizod xatırlanır. Sizin cavabınız öz "ampluanızda" - öz səviyyəsizliyinizdə, səthiliyinizdə və dayazlığınızdadır. Prezidentin Sizi təqdimi isə zərgər dəqiqliyi ilə, düzgün, məntiqi və alternativsizdir: "Kimdir Vəzirov? Təlxək! Azərbaycanı biabır edən. Azərbaycan xalqının qanını axıdan!".

Sözardının sonunda açıq məktubdan sətirlər düşür yadıma: "ən qatı cinayətkarlar da içlərində zərrə qədər qeyrət, namus hissi varsa, xalq məhkəməsində günahlarını etiraf edirlər, törətdiklərini açıb-ağardırlar"...

Siz doxsan yaşın kandarında da özünüzdə bu təpəri tapa bilmədiniz, buna sadəcə layiq deyilsiniz!

Siz - əski cəmiyyətin də, bu günün də şər qazanı!

**12 mart 2019.**
**Bişkek.**

# "Reket jurnalistika" - Azərbaycan mediasının qara ləkəsi - RƏYLƏR

**Son illər Azərbaycanda "reket" jurnalistika ilə mübarizə nəticəsində bir neçə mətbuat orqanının fəaliyyəti yasaqlanıb və onların rəhbərləri cinayət məsuliyyətinə cəlb olunub. Amma buna baxmayaraq, Azərbaycanda "reket" jurnalistika ilə məşğul olanların sayı durmadan artır.**



Bu da ölkədə medianın azad olmasından sui-istifadə edən dələduzların fəaliyyətinin genişlənməsinə səbəb olur. Belə fəaliyyətin qarşısının alınması üçün Mətbuat Şurası (MŞ) və hüquq mühafizə orqanları tərəfindən tədbirlər görülür. Bununla yanaşı, bəzi müxalif dairələr Azərbaycanda "reket" jurnalistika ilə mübarizəni azad medianın sıxışdırılması kimi qiymətləndirir. Görəsən, "reket" medianın məsuliyyətə cəlb olunması üçün hansı zəruri tədbirlər görülməlidir? Bu istiqamətdə beynəlxalq təcrübə nədən ibarətdir?

**Mətbuat Şurasının İdarə Heyətinin üzvü Azər Həsrət "Report"a açıqlamasında bildirib ki,** "reket" jurnalistika cinayət əməlidir: "Şərti olaraq "reket" dediyimiz media və onu işlədənlər jurnalistika ilə məşğul olan insanlar deyil. "Reketçilik" ümumiyyətlə, jurnalistika deyil və bu, tamam başqa sahədir. Bu, bir cinayət əməlidir. Ona görə də bu işlə məşğul olanlara cəza kəsilməlidir. Sadəcə olaraq, Azərbaycandakı mətbuat azadlığından sui-istifadə edən, xüsusən də dələduzluqla məşğul olmağı özlərinin həyat tərzlərinə çevirən bir sıra şəxslər mətbuata soxularaq iyrənc fəaliyyət göstərirlər. MŞ-də bu məsələlər mütəmadi olaraq müzakirə olunur. Çünki Şuraya edilən şikayətlərin əksəriyyətini "reket" medianın fəaliyyətindən zərərçəkənlər ediblər. Sonra həmin medianın məsul şəxsləri Şuraya dəvət olunan zaman onların təhsillərindən əlavə, dünyagörüşülərinin olmadığı məlum olur. Hətta onu deyim ki, biz onları anlamaqda çətinlik çəkirik. Təbii olaraq, onlar da bizi anlamaqda çətinlik çəkirlər. Çünki onlar mediadan xəbərsiz dələduzlardır".

### "Jurnalistikadan sui-istifadə edənlərə müəyyən müddətə media fəaliyyəti ilə məşğul olmaq yasaqlanmalıdır"

A.Həsrət "reketçiliyi" özlərinə məşğulluq bilənlərin fəaliyyətlərinin qarşısının alınması üçün uzun müddətdir təkliflər irəli sürdüyünü qeyd edib. Onun sözlərinə görə, bununla bağlı dövlət qurumlarına müraciətlər edilir: "Azərbaycanda qanunvericiliyin dəyişdirilməsinə çox ciddi zərurət var. Məsələn, ölümlə nəticələnmiş ağır yol-nəqliyyat hadisəsini törədən sürücü müəyyən müddətə avtomobil idarə etmək hüququndan məhrum edilir. Hesab edirəm ki, jurnalistikadan sui-istifadə edən, mütəmadi olaraq peşə-davranış qaydalarını pozan şəxslərə müəyyən müddətə media fəaliyyəti ilə məşğul olmaq yasaqlanmalıdır. Düşünürəm ki, bu cəza Azərbaycanda "reket" jurnalistikanın fəaliyyətini məhdudlaşdıracaq. Bununla da onlar dələduz əməllərini jurnalistikanın adına sırımayacaqlar".

### "Bəzi müxaliflərin Azərbaycanda "reket" media ilə mübarizəni azad mətbuatın sıxışdırılması kimi qələmə verməsi gülüncdür"

A.Həsrət vurğulayıb ki, Azərbaycanda çap və onlayn medianın əməkdaşları üçün vahid vəsiqə verilməsi prosesi davam etdirilsə "reket" jurnalistikanın qarşısı alınacaq: "Çünki təsadüfi şəxslər o vəsiqəyə sahib ola bilməyəcəklər. Azərbaycanda senzura ləğv olunub. Bəzi müxaliflərin Azərbaycanda "reket" media ilə mübarizəni azad mətbuatın sıxışdırılması kimi qələmə verməsi gülüncdür. Jurnalistikanın təmiz olması siyasi baxışından asılı olmayaraq hamıya lazımdır. Çünki hər kəs istəyər ki, normal media olsun".

### "Reket"çiliklə məşğul olanlar ölkədə sözü hörmətdən salmaqla yanaşı, cinayətkarlıqla məşğuldurlar"

**"Reket" jurnalistikasından danışan "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu "Report"a deyib ki,** "reketçiliklə" məşğul olanların fəaliyyəti bütövlükdə jurnalistikaya böyük zərbə vurur: "Mən bu fəaliyyətə "reket" də olsa belə, jurnalistika deməyi uyğun saymıram. Bu fəaliyyət "reket" cinayətkarlıqdır. Çünki onlar medianı özlərinə qazanc mənbəyi kimi görürlər və pul qazanmaq naminə bu sahəyə axışmağa başlayırlar. Hesab edirəm ki, onlara qarşı sərt tədbirlər görülməlidir. Görünür, Azərbaycanda sözə hörmətin və sözün yaratdığı qorxunun olması səbəbindən onlar mediaya axın edirlər. Amma onlar ölkədə sözü hörmətdən salmaqla yanaşı, cinayətkarlıqla məşğuldurlar. Diqqətlə fikir versəniz, onların daha çox qazanc məqsədi ilə kimlərisə şantaj etdiyini və kimlərinsə haqqında yalan məlumatlar yaydığının şahidi olarsınız. Bu da təbii ki, cinayət xarakterli əməldir və bunu törədən şəxs kimliyindən asılı olmayaraq məsuliyyətə cəlb olunmalıdır.

### "Başdan-başa internetləşən Azərbaycanda medianı və ifadə azadlığını sıxışdırmaq qeyri-mümkündür"

R.Arifoğlu hesab edir ki, Azərbaycanda medianı və ifadə azadlığını sıxışdırmaq qeyri-mümkündür: "Çünki Azərbaycan başdan-başa internetləşib. Sosial şəbəkələr mövcuddur. Hər kəs bloq, "youtube" və digər sosial şəbəkə hesabı yaradıb istədiyi fəaliyyətlə məşğul ola bilir. Ona görə də Azərbaycanda azad medianın sıxışdırılması iddiası artıq demoqogiyadır. Çünki hətta hökumət istəsə belə, Azərbaycanda azad medianı sıxışdıra bilməz. Hazırda belə bir fakt ölkədə mümkün deyil. Bu iddianın sahibləri həm daxildəki müxalifətin, həm də xaricdə xüsusi xidmət orqanlarının müdaxiləsi ilə təşkilatlandırılan xarici müxalifətin ən zəif iddialarından biridir. "Reket" jurnalistika ilə mübarizədə Mətbuat Şurası gecə-gündüz araşdırmalar aparır. Araşdırmalardan sonra sənədlər toplanaraq hüquq-mühafizə orqanlarına təqdim edilir. Burada Azərbaycanın hüquq mühafizə orqanları çəkinir. Hesab edirəm ki, bununla bağlı ciddi tədbirlər görülməlidir. Eyni zamanda, "reketçiliklə" mübarizədə hüquq mühafizə orqanlarının sürətli fəaliyyət göstərməsinin tərəfindəyəm. Amma təəssüflər olsun ki, bunu müşahidə edə bilmirik".



**Mətbuat Şurasının İdarə Heyətinin üzvü Azər Həsrət**

*Azərbaycanda senzura ləğv olunub. Bəzi müxaliflərin Azərbaycanda "reket" media ilə mübarizəni azad mətbuatın sıxışdırılması kimi qələmə verməsi gülüncdür. Jurnalistikanın təmiz olması siyasi baxışından asılı olmayaraq hamıya lazımdır. Çünki hər kəs istəyər ki, normal media olsun.*



**"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu**

*Azərbaycanda azad medianın sıxışdırılması iddiası artıq demoqogiyadır. Çünki hətta hökumət istəsə belə, Azərbaycanda azad medianı sıxışdıra bilməz. Hazırda da belə bir fakt ölkədə mümkün deyil. Bu iddianın sahibləri həm daxildəki müxalifətin, həm də xaricdə xüsusi xidmət orqanlarının müdaxiləsi ilə təşkilatlandırılan xarici müxalifətin ən zəif iddialarından biridir.*

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Kompleks Qazma İşləri Tresti

**SCR elektron idarəetmə sistemi və nasosların idarəetmə pultuna (Konsol) olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26005-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);
* Müsabiqə təklifinin təminatı;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 05.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dillərində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır. Göstərilmiş tarixdən gec edilmiş ödəniş və müraciətə baxılmayacaqdır.

Tələb olunan sənədlərin elektron surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 12.04.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Müsabiqə təklifinin təminatı:***

Müsabiqə təklifinin təminatı, bank qarantiyası formasında iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə, 12.04.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Müvafiq təminatı təqdim edilməyən təklif rədd ediləcəkdir.

Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.

Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə sorğu verməlidir.

***IV. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu əldə etmək istəyənlər əlaqələndirici şəxsə iştirak haqqının ödənilməsi barədə bank sənədini və müraciət məktubunu (elektron və ya çap) təqdim etməklə əsas şərtlər toplusunu (elektron və ya çap) Azərbaycan, ingilis və ya rus dilində əldə edə bilərlər.
* Qeyd olunmuş sənədlər elanın I paraqrafında göstərilmiş tarixədək iş günü ərazində saat 09:00-dan 17:30-a kimi təqdim və qəbul edilə bilər.
* İştirak haqqı 236 manat (ƏDV ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyutadır və Satınalan təşkilatın aşağıdakı bank hesabına ödənilməlidir:

Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***V. Təminatlar:***

* Müsabiqə təklifinin təminatı iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə təminat tələb olunur.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunacaqdır.

***VI. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***VII. Satınalan təşkilatın ünvanı:***

AZ1033, Bakı şəhəri, Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105.
SOCAR, Kompleks Qazma İşləri Tresti

**Əlaqələndirici şəxs:**
Hüseynov Anar.
Maddi-texniki təchizat və marketinq şöbəsi, şöbə rəisinin müavini
Telefon: (+99 412) 521-31-59
Faks: (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***IX. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 12.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə bilər:

http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Kompleks Qazma İşləri Tresti

**Ağırlaşdırılmış tamponaj sementinə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26011-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);
* Müsabiqə təklifinin təminatı;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 05.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır. Göstərilmiş tarixdən gec edilmiş ödəniş və müraciətə baxılmayacaqdır.

Tələb olunan sənədlərin elektron surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 12.04.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Müsabiqə təklifinin təminatı:***

Müsabiqə təklifinin təminatı, bank qarantiyası formasında iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə, 12.04.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Müvafiq təminatı təqdim edilməyən təklif rədd ediləcəkdir.

Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.

Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə sorğu verməlidir.

***IV. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu əldə etmək istəyənlər əlaqələndirici şəxsə iştirak haqqının ödənilməsi barədə bank sənədini və müraciət məktubunu (elektron və ya çap) təqdim etməklə əsas şərtlər toplusunu (elektron və ya çap) Azərbaycan, ingilis və ya rus dilində əldə edə bilərlər.
* Qeyd olunmuş sənədlər elanın I paraqrafında göstərilmiş tarixədək iş günü ərazində saat 09:00-dan 17:30-a kimi təqdim və qəbul edilə bilər.
* İştirak haqqı 236 manat (ƏDV ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyutadır və Satınalan təşkilatın aşağıdakı bank hesabına ödənilməlidir:

Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***V. Təminatlar:***

* Müsabiqə təklifinin təminatı iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə təminat tələb olunur.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunacaqdır.

***VI. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***VII. Satınalan təşkilatın ünvanı:***

AZ1033, Bakı şəhəri, Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105.
SOCAR, Kompleks Qazma İşləri Tresti

**Əlaqələndirici şəxs:**
Hüseynov Anar.
Maddi-texniki təchizat və marketinq şöbəsi, şöbə rəisinin müavini
Telefon: (+99 412) 521-31-59
Faks: (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***IX. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 12.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***X. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə bilər:

http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**

iki sahil
VAHİD AZƏRBAYCAN UĞRUNDA!
Son səhifə
www.ikisahil.az / www.ikisahil.tv
16
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 48 (7303) / Çərşənbə, 13 mart 2019-cu il

# Duzun duz yeri, şəkərin öz yeri...

**Şəkər və duzun normadan artıq qəbul edilməsi insan sağlamlığına mənfi təsir göstərir. Onların qədərindən artıq istifadəsi bəzi xəstəliklərin yaranması ilə yanaşı, bir sıra xəstəliklərin fəallaşmasına da səbəb olur.**

Milli.Az AZƏRTAC-a istinadən bildirir ki, həkim-endokrinoloq, tibb üzrə fəlsəfə doktoru Aytən Babaxanlının dediyinə görə, insan gün ərzində 10 faizdən artıq şəkər qəbul etməməlidir: "Şəkər normadan artıq olanda hüceyrələr onu mənimsəyə bilmədiyinə görə, əsas yük insulin hormonunun üzərinə düşür. Bunun nəticəsində şəkərli diabet, piylənmə və metabolik xəstəliklərin əmələ gəlməsi üçün risk yaranır.

Bal, meyvə və tərəvəzlərin tərkibində olan təbii şəkərlərdən fərqli olaraq qənd, şəkər tozu və s. süni şəkər əvəzedicilərinin çox qəbul edilməsi insan orqanizmi üçün çox ziyandır. Həmin siyahıya içkilərin tərkibində olan kimyəvi şəkərlər də daxildir".

Diyetoloq Ləman Süleymanova da həmin məhsulların zərərli təsirini etiraf edir: "Bəzi qazlı içkilərin tərkibində olanlar kimyəvi birləşmələrlə zənginləşən şəkər sayılır və qaraciyərə çox mənfi təsir göstərir, yorğunluq və halsızlıq əmələ gətirir. Bəzi energetik içkilərin tərkibindəki şəkər də zəhərli şəkər hesab edilir və onun qəbulu immunitetin kəskin zəifləməsinə, mədə xərçənginə və piylənmə yaranmasına səbəb ola bilər. Hər 90 pasiyentdən 20-30 nəfərini şəkəri çox qəbul edənlər təşkil edir".

Mütəxəssislərin dediyinə görə, gün ərzində orqanizmə 5 qram, yəni bir çay qaşığı duz qəbul



olunması kifayət edir. Diyetoloqun dediklərinə əsasən duzun artıq olması fəsadlara aparıb çıxarır, onun çoxluğu yüksək təzyiq və onun fonunda miokard infarktı, insult və çəkinin aşağı düşməsinə mane olan faktordur: "Genetik modifikasiya olunmuş, uşaqların daha çox istifadə etdiyi xüsusi qablaşdırılmış şirniyyatların tərkibində olan duzlar faydasız hesab edilir. Hətta mədəaltı vəzin fəaliyyətinə çox mənfi təsir göstərir, ürək-damar xəstəlikləri olanlar üçün çox zərərlidir, qanda xolesterinin artmasına səbəb olur".

Lakin şəkər və duzdan tam şəkildə imtina etmək də düzgün deyil, çünki şəkər orqanizmdə enerji mənbəyidir. Onun azlığı əhvali-ruhiyyənin aşağı olmasına səbəb olur, emosionallıq, depressiya və ətraf mühitə qarşı laqeydlik yaradır. Duz isə orqanizmdə damar tonusunu normada saxlayır. Arterial təzyiqin, ürək-damar, həmçinin sinir sisteminin fəaliyyətini tənzimləyir.

# "MediaTek" yeni 7 nanometr prosessor istehsal etməyi hədəfləyir



Intel və Qualcomm kimi sənaye liderləri ilə rəqabət aparmaq üçün böyük addımlar atan MediaTek bu yaxınlarda 7 nanometr istehsal texnologiyası ilə inkişaf etdiriləcək yeni bir prosessor üzərində işləyir.

Milli.Az chip.az-a istinadən bildirir ki, prosessor sahəsində dünyanın ən məşhur markalarına lider olan MediaTek-in növbəti hədəfi 5G texnologiyası və süni intellekt ilə 7 nanometr çipset istehsal etməkdir.

MediaTek-in qabaqcıl özəllikləri ilə diqqət çəkən Helio P90-nın ardından istehsal olunan və adı açıqlanmayan prosessor Snapdragon 855 və Kirin 980-lə müqayisədə daha yaxşı performans göstərməyi hədəfləyir. Helio P90-un keçən il buraxılan 12 nanometrlik prosessorunu nəzərə alsaq, 7 nanometrlik prosessor şayiələrin haqqını verəcək kimi görünür.

## ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın "Azəriqaz" İB-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun direktor müavini Arif Qədirova, bacısı

**Mənzər xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun direktor müavini Arif Qədirova, bacısı

**Mənzər xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Qaz İxrac" İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun direktor müavini Arif Qədirova, bacısı

**Mənzər xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rəisi Fuad Süleymanov, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun direktor müavini Arif Qədirova, bacısı

**Mənzər xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Azərbaycan neft təsərrüfatı" jurnalı redaksiyasının kollektivi SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun direktor müavini Arif Qədirova, bacısı

**Mənzər xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

SOCAR-ın "Azneft" İB-nin Dalma Qurğularının Təmiri və Kirayəsi üzrə Eksperimental İstehsalat Müəssisəsinin direktoru Nazim Qafarov və əmək kollektivi SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun direktor müavini Arif Qədirova, bacısı

**Mənzər xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Qlakom nədir?



Qlakom insanlar arasında göz təzyiqi kimi tanınır.

Lakin qlakom görmə sinirinin zədələnməsi ilə bağlı bir neyrotrapik xəstəlikdir. Xəstələrdə aşağı göz təzyiqi ilə yanaşı, yüksək göz təzyiqi də ola bilər.

**Qlakom təhlükəli bir xəstəlikdirmi?**

Qlakomda ən əhəmiyyətli təhlükə diaqnozun gecikdirilməsidir. Diaqnozu qoyulmamış və müalicəsi gecikdirilmiş qlakom xəstəliyi korluqla nəticələnə bilər. Erkən diaqnoz və vaxtında olunan müalicə görmə itkisinə mane ola bilər.

Bu göz xəstəliyi xəstələrin 90%-də görmə itkisi yaradana qədər inkişaf mərhələsində irəliləmə zamanı heç bir əlamətini göstərmir.

**Qlakomun simptomları hansılardır?**

Qlakom bu xəstəliyə tutulmuş insanlarda özünü xəstələrin 10%-də baş ağrısı, göz ağrısı kimi simptomlarla göstərir.

**Qlakom xəstəliyinin müalicəsi varmı?**

Qlakom artıq çoxçeşidli müalicə variantları ilə müalicə oluna bilən bir xəstəlikdir. Göz damlaları və lazer əməliyyatları vasitəsilə göz həssaslığı xəstəyə zərər verməyəcək dərəcədə azaldılır. Görmə itkisi bərpa edilə bilməz, ancaq xəstəliyin inkişafı dayandırıla bilər.

Röya Rasimqızı, *"İki sahil"*

Təsisçi: SOCAR

Baş redaktor: Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini: İsmayıl HACIYEV

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB38030019443700306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Çapa imzalanıb: 13.03.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8287
İndeks: 0151, Sifariş: 920

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "AzadInform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.